## Ərdoğan Zelenski ilə telefon danışığı aparıb

Türkiyə Kaxovka SES-lə bağlı BMT, Rusiya, Ukrayna və Türkiyənin iştirakı ilə komissiya yaratmağı təklif edib



**Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Ukrayna prezidenti Vladimir Zelenski ilə telefon danışığı aparıb.**

APA-nın İstanbul müxbirinin verdiyi xəbərə görə, bu barədə Türkiyə Prezident Administrasiyası məlumat yayıb. Qeyd olunub ki, Ərdoğan danışıq zamanı Kaxovka bəndində baş verən partlayışın təfərrüatlı araşdırılması üçün Rusiya, Ukrayna, habelə BMT və Türkiyə ekspertlərinin iştirakı ilə komissiyanın yaradıla biləcəyini bildirib.

## Numan Kurtulmuş Türkiyə Böyük Millət Məclisinin sədri seçilib



**Hakim Ədalət və İnkişaf Partiyasının (AKP) İstanbul millət vəkili Numan Kurtulmuş Türkiyə Böyük Millət Məclisinin sədri seçilib.**

O, 7 namizəd arasından 321 səslə sədr seçilib və növbəti 5 ildə bu vəzifəni icra edəcək.

Qeyd edək ki, Türkiyədə 28 may 2023-cü ildə keçirilən Prezident seçkilərindən sonra müvəqqəti olaraq bu vəzifəni MHP sədri Dövlət Bağçalı icra edirdi.





## Növbəti 4 il ərzində Şuşaya 2000 nəfər köçürüləcək

**Hazırda həyata keçirilən Böyük Qayıdışa dair I Dövlət Proqramının bir hissəsi kimi növbəti 4 il ərzində Şuşaya 2000 nəfər köçürüləcək.**

Bunu Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkilatçılığı ilə Şuşa şəhərində keçirilən tədbirdə Azərbaycan Respublikası Prezidentinin Şuşa rayonu üzrə xüsusi nümayəndəsi Aydın Kərimov deyib.

O, Şuşanın ümumilikdə 20 min nəfərin yaşadığı olduqca canlı şəhər olacağını qeyd edib.


❐ № 99 (5860) 2023-cü il

Qiyməti 40 qəpik

# ŞƏRQ

Günəş Şərqdən doğur!

www.sherg.az 8 iyun 2023-cü il (cümə axşamı)






## Ermənistan və Azərbaycan üçün ilk dəfə olaraq sülh əlçatandır

Ceyhun Bayramov: "Bakı Qarabağ bölgəsinin etnik erməni sakinlərini bərabərhüquqlu vətəndaşlar kimi reinteqrasiya etməkdə qərarlıdır"

**Ermənistan və Azərbaycan arasında təxminən otuz ildir davam edən silahlı münaqişənin başa çatması və dövlətlərin bir-birinin suverenliyinə, ərazi bütövlüyünə və sərhədlərinin toxunulmazlığına qarşılıqlı hörmət etmək öhdəliyi götürməsi nəticəsində öz müstəqilliklərini bərpa etdikdən sonra hər iki ölkə üçün ilk dəfə olaraq sülh əlçatandır.**

XİN-dən verilən məlumata görə, bunu Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov ATƏT-in Daimi Şurasının xüsusi iclasında çıxışı zamanı deyib.


(səh.2)


## Laçın yolunda buraxılış məntəqəsi saat kimi işləyir

Ermənilər Azərbaycan bayrağının əzəmətini qəbul edib, bizim torpaqda olduqlarına öyrəşdilər



**Laçın-Xankəndi yolunun girişində quraşdırılmış nəzarət-buraxılış məntəqəsi ay yarımdır ki, fəaliyyət göstərir.**

Ay yarım öncə, yeni sərhəd-keçid məntəqəsi qurulduğu zaman günlərlə həm Ermənistan və Rusiyada, həm də İrəvanın Qərbdəki havadarları arasında müzakirə mövzusu olmuşdu.


(səh.4)


# İlin sonunda Brüsseldə sülh sazişi imzalana bilər

ABŞ və Avropa Birliyi prosesi ən qısa zamanda yekunlaşdırmaq üçün Ermənistana qarşı təzyiqləri gücləndirir



**Mayın 14-də Avropa İttifaqının rəhbərlik etdiyi sülh danışıqlarına Azərbaycan və Ermənistanın yenidən cəlb olunmasını səmimiyyətlə alqışlayırıq.**

Bu barədə Aİ-nin ATƏT-dəki Nümayəndəliyinin Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramovun ötən gün ATƏT-in Daimi Şurasının xüsusi iclasında çıxışına dair bəyanatında bildirilib.

Qeyd olunub ki, iyunun 1-də Kişineuda Fransa və Almaniya liderlərinin də iştirakı ilə keçirilən görüş onların prosesə sadiqliyini bir daha nümayiş etdirdi: "Biz danışıqların Azərbaycanla Ermənistan arasında ədalətli və hərtərəfli sülhə nail olmaq üçün yeganə yol olduğunu bir daha vurğulayırıq. Nəticə etibarı ilə, dialoqda davamlılıq və konkret nəticələr proses üçün həlledici əhəmiyyət kəsb edir. Biz Bakının 21 iyulda Aİ-nin vasitəçiliyi ilə keçiriləcək növbəti iclasında iştirakını təqdir edirik.


(səh.2)


# Yeni hökumət yola çıxdı

Ərdoğan çox peşəkar bir hökumət formalaşdırıb



**Türkiyədə yeni hökumət öz fəaliyyətinə başlayıb. İyunun 8-də Milli Təhlükəsizlik Şurası (MTŞ) Prezident Rəcəb Tayyib Ərdoğanın sədrliyi ilə yeni üzvlərlə bir araya gələcək.**

Prezident İqamətgahında keçiriləcək iclas həm də yeni Nazirlər Kabinetinin ilk MTŞ iclası olacaq. Toplantıya vitse-prezident Cevdet Yılmaz, ədliyyə naziri Yılmaz Tunç, xarici işlər naziri Hakan Fidan, daxili işlər naziri Əli Yerlikaya, milli müdafiə naziri Yaşar Gülər, Baş Qərargah rəisi ordu generalı Musa Avsever və digər rəsmilər qatılacaq.


(səh.2)




## Mirzoyan Hakan Fidanla danışıb

XİN başçıları ikitərəfli münasibətlərin normallaşmasını müzakirə edib

**İyunun 7-də Ermənistanın xarici işlər naziri Ararat Mirzoyan Türkiyənin yeni təyin olunmuş xarici işlər naziri Hakan Fidanla telefon danışığı aparıb.**

APA xəbər verir ki, Ararat Mirzoyan Hakan Fidanı Türkiyə Xarici İşlər Nazirliyinin rəhbəri vəzifəsinə təyin olunması münasibəti ilə təbrik edib. Tərəflər Ermənistan və Türkiyə arasında münasibətlərin tam normallaşması istiqamətində işi davam etdirməyə hazır olduqlarını bildiriblər.

## Növbəti təxribatın qarşısı alındı

Xocavənd və Şuşa istiqamətlərində mövqelərimiz atəşə tutuldu



**İyunun 7-si saat 13:35-dən saat 19:45-dək Rusiya sülhməramlılarının müvəqqəti yerləşdiyi Azərbaycan ərazisindəki qeyri-qanuni erməni silahlı dəstələrinin üzvləri tərəfindən Azərbaycan Ordusunun Xocavənd və Şuşa rayonları istiqamətlərində yerləşən mövqeləri atıcı silahlardan fasilələrlə atəşə tutulub.**

Müdafiə Nazirliyindən verilən məlumata görə, bölmələrimiz tərəfindən qeyd olunan istiqamətlərdə adekvat cavab tədbirləri görülüb. Bundan başqa, qeyri-qanuni erməni silahlı dəstələrinin üzvləri kənd təsərrüfatı işləri adı altında Ordumuzun Ağdam, Xocavənd və Şuşa rayonları istiqamətlərində yerləşən mövqelərinin qarşısında uzunmüddətli fortifikasiya qurğularını quraşdırmağa cəhd göstəriblər.

*Bölmələrimiz tərəfindən görülən təxirəsalınmaz tədbirlər nəticəsində aparılan işlər dərhal dayandırılıb.*

## 2 nəfər vəfat edib

4 yeni yoluxma faktı qeydə alınıb

**Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 4 yeni yoluxma faktı qeydə alınıb, 9 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan "Şərq"ə verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış şəxslərdən 2 nəfəri vəfat edib.

Azərbaycanda indiyədək ümumilikdə 831 869 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib. Onlardan 821 559 nəfər müalicə olunaraq sağalıb, 10 279 nəfər vəfat edib, aktiv xəstə sayı 31 nəfərdir.

*Ölkədə son sutka ərzində 1 041, hazırkı dövrədək isə 7 628 898 test aparılıb.*



## Amerikalı ekspertin hədəfi Rusiyadır

Azərbaycan ya Vaşinqton, ya da Brüssel formatlarından birini seçməlidir


(səh.2)




## Deputatlar qiymət artımından gileyləndi

"Heç olmasa, ərzaq və dərmanla əlaqədar əhalinin tələbatını ödəməliyik"


(səh.5)

# Ermənistan və Azərbaycan üçün ilk dəfə olaraq sülh əlçatandır

Ceyhun Bayramov: “Bakı Qarabağ bölgəsinin etnik erməni sakinlərini bərabərhüquqlu vətəndaşlar kimi reinteqrasiya etməkdə qərarlıdır”




**Ermənistan və Azərbaycan arasında təxminən otuz ildir davam edən silahlı münaqişənin başa çatması və dövlətlərin bir-birinin suverenliyinə, ərazi bütövlüyünə və sərhədlərinin toxunulmazlığına qarşılıqlı hörmət etmək öhdəliyi götürməsi nəticəsində öz müstəqilliklərini bərpa etdikdən sonra hər iki ölkə üçün ilk dəfə olaraq sülh əlçatandır.**

XİN-dən verilən məlumata görə, bunu Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov ATƏT-in Daimi Şurasının xüsusi iclasında çıxışı zamanı deyib.

”Üçtərəfli Bəyanat əsasında silahlı münaqişə sona çatdıqdan sonra, 30 illik hərbi işğal dövründə Azərbaycan xalqının uzun illər ərzində məruz qaldığı əzab-əziyyətə, məhrumiyyətlərə və dağıntılara baxmayaraq, Azərbaycan Ermənistanla davamlı sülhün təmin edilməsi istiqamətində fəal iş aparır. Münaqişənin başa çatması sülhün qurulması, sabitliyin möhkəmləndirilməsi, dinc birgə yaşayışın təmin edilməsi, barışıq gündəliyinin irəliyə aparılması, iqtisadi inkişafa və əməkdaşlığa sərmayə qoyuluşu üçün imkan və real perspektivlər gündəmə gətirir”, - deyən Azərbaycanın xarici işlər naziri ölkəsinin bu yanaşma ilə Ermənistana münaqişədən sonrakı normallaşma gündəliyini təklif etdiyini bildirib.

Nazir diqqətə çatdırıb ki, Azərbaycan, ölkəmizin Qarabağ bölgəsinin etnik erməni sakinlərini bərabərhüquqlu vətəndaşlar kimi Azərbaycanın siyasi, hüquqi, iqtisadi və sosial çərçivəsinə reinteqrasiya etməkdə qərarlıdır.

Nazir qeyd edib ki, hökumət onların reinteqrasiyasına aid məsələləri müzakirə etmək üçün yerli erməni sakinləri ilə dialoq üzrə xüsusi nümayəndə təyin edib.

”Tərəfdar çıxdığımız beynəlxalq sənədlərlə yanaşı, xüsusən də Avropa İnsan Hüquqları Konvensiyası və Milli Azlıqların Müdafiəsi üzrə Çərçivə Konvensiyası, Azərbaycan Konstitusiyası və milli qanunvericiliyi buna əsaslı zəmin yaradır.

Qanunun aliliyi və qanun qarşısında hamı üçün bərabər müdafiə ATƏT-in hərtərəfli təhlükəsizlik konsepsiyasının əsasını təşkil edir. İnsan hüquqlarına ədalətli və bərabər şəkildə, eyni mövqe və eyni vurğu ilə yanaşılmalıdır. ATƏT-in Kopenhagen Sənədində göstərildiyi kimi, milli azlıqlara mənsub şəxslərin müdafiəsi ilə bağlı atılan addımlar müvafiq iştirakçı dövlətin digər vətəndaşlarına münasibətdə bərabərlik və ayrı-seçkiliyə yol verilməməsi prinsiplərinə uyğun olmalıdır.

Dövlətlərin daxili işlərinə qarışmamaq, milli azlıqlara mənsub şəxslərin inteqrasiyasına xələl gətirməmək və ya qonşu dövlətlərin ərazisində separatizmi qızışdırmamaq üzrə öz vəzifə və öhdəliklərinə ciddi şəkildə riayət etmək bütün dövlətlər üçün eyni dərəcədə zəruridir. Milli azlıqlara mənsub şəxslərin insan hüquqlarının müdafiəsi dövlətlərin ərazi bütövlüyünü və suverenliyini pozmamalı, əksinə gücləndirməlidir”, - deyə XİN rəhbəri vurğulayıb.



# Prezident fərman imzalayıb

Azərbaycanın ştatdankənar konsulu haqqında əsasnaməyə dəyişiklik edilib

**Azərbaycan Respublikasının ştatdankənar (fəxri) konsulu haqqında Əsasnaməyə dəyişiklik edilib.**

Bununla bağlı Prezident İlham Əliyev müvafiq fərman imzalayıb.

Fərmana əsasən, karantin və başqa yoluxucu, xüsusilə tropik, QİÇS və bəzi digər yoluxucu xəstəliklərin əvvəllər bu xəstəliklərdən azad olan ərazilərdə meydana çıxdığı zaman Azərbaycanın ştatdankənar (fəxri) konsulu xəstəliyin yayıldığı rayonu, yoluxma hallarının sayını və yerli hakimiyyət orqanları tərəfindən epidemiyaya qarşı görülən tədbirləri göstərməklə, Azərbaycanın qəbul edən dövlətdəki diplomatik nümayəndəliyinə və ya konsulluğuna, və ya bilavasitə Xarici İşlər Nazirliyi ilə yanaşı, Səhiyyə Nazirliyinə və Qida Təhlükəsizliyi Agentliyinə dərhal bu barədə məlumat verəcək.

Bundan başqa, kənd təsərrüfatı bitkilərinə aid təhlükəli xəstəliklər və ziyanvericilər meydana çıxdığı zaman, habelə mal-qara və quşların kütləvi xəstələndikləri hallarda, yaxud insan və heyvanlar üçün ümumi olan xəstəliklərin yayılmaq təhlükəsi yarandıqda, Azərbaycanın ştatdankənar (fəxri) konsulu Azərbaycan Respublikasının qəbul edən dövlətdəki diplomatik nümayəndəliyinə və ya konsulluğuna, və ya bilavasitə Xarici İşlər Nazirliyi ilə yanaşı, Səhiyyə Nazirliyinə və Qida Təhlükəsizliyi Agentliyinə dərhal bu barədə məlumat verəcək.

# Amerikalı ekspertin hədəfi Rusiyadır

Azərbaycan ya Vaşinqton, ya da Brüssel formatlarından birini seçməlidir



**Amerikalı hüquqşünas, təhlükəsizlik üzrə ekspert İrina Zukerman Azərbaycan-Ermənistan arasında sülh müqaviləsindən danışarkən bir məqama diqqət çəkib. Zukerman qeyd edib ki, Azərbaycan və Ermənistan beynəlxalq vasitəçiliyin yekun formatı barədə qərar verməli və diqqəti yerdə qalan fikir ayrılıqlarının həlli yollarının tapılmasına yönəltməlidir:**

”Bakı və İrəvan başqa ölkələrin eqolarının danışıqlar prosesini sonsuz müzakirələrə çevirməsinə imkan verməməlidirlər”. Ekspertin sözlərinə görə, tərəflər arasında Qərbin vasitəçiliyi ilə Kişineuda keçirilən son görüşün ən maraqlı tərəfi odur ki, bu görüş amerikalı diplomatların fəallığının ardınca baş tutub: ”Sanki Avropa İttifaqı ya ABŞ-nin səylərini tamamlamağa ehtiyac duyur, ya da Vaşinqtonun üzündən bu fürsəti əldən verməkdən qorxur. Hər halda, bu, Rusiyanın bu prosesə müdaxiləsindən qat-qat yaxşıdır”. Amerikalı analitikin fikrincə, Aİ, ABŞ və ya Fransanın Bakı ilə İrəvan arasında münasibətlərin normallaşması prosesi zamanı yaranan paralel yollara hər hansı etiraz edib-etməyəcəyini izləmək maraqlı olacaq: ”Aydındır ki, bütün maraqlı tərəflər siyasi qələbədən faydalanmağa ümid edirlər”.

**Politoloq Turab Rzayev ”Şərq”ə açıqlamasında vurğulayıb ki, burada mesaj kifayət qədər aydın şəkildə tərəflərin diqqətinə çatdırılıb. Amerikalı ekspert haqlı olaraq diqqətə çatdırır ki, Azərbaycan və Ermənistan tezliklə sülh formatı üzərində vahid mövqeyə gəlməlidir:** ”Əlbəttə, bu, hansısa kənar dövlətlərin eqolarını təmin etmək, sülh prosesini uzatmaq məqsədi ilə edilməməlidir. Amerikalı ekspertin hədəfi Rusiyadır. Tərəflər arasında sülhyaratma missiyasını öz üzərinə götürən Rusiya vaxtaşırı olaraq həm Brüssel, həm də Vaşinqton formatını sabotaj etməklə məşğuldur. Kreml bildirir ki, ancaq Moskva və Soçi görüşlərində yekun sülhə nail olmaq mümkündür. Ancaq bütün təşəbbüslər sadəcə Rusiyanın tərifilənməsi ilə yekunlaşır və ortada heç bir real addım müşahidə edilmir. Ona görə qərbli ekspertlər düşünürlər ki, Bakı və İrəvan format barəsində konkret seçim etməlidir. Reallıq odur ki, bir neçə fərqli formatda prosesi aparmaq sülhün əldə olunmasını mümkünsüz hala gətirir. Enerjinin fərqli hissələrə parçalanmasına səbəb olur. Bir format seçərək, onun üzərindən irəliləmək daha məqsədəuyğun olar”.

*T.Rzayevin qənaətincə, üçlü, dördlü, beşli formatların yenidən gündəmə gəlməsi öz-özlüyündə heç nəyi həll etmir və ümumilikdə sülh prosesini zəiflədir:* ”Çünki hər bir ölkənin öz maraqları var. Azərbaycan ya Vaşinqton, ya da Brüssel formatlarından birini seçməlidir. Sülh danışıqları ancaq bu formatlar üzərindən aparılmalıdır. Paralel olaraq həm Rusiya, həm də Qərb platformalarında, üçlü, dördlü, beşli formatlarda sülh prosesini irəliyə doğru daşımaq çox çətindir. Bunların hamısı prosesi uzatmağa və onillərlə davam edən danışıqlara xidmət edir”.

**İsmayıl Qocayev**



# Yeni hökumət yola çıxdı

Ərdoğan çox peşəkar bir hökumət formalaşdırıb

**Türkiyədə yeni hökumət öz fəaliyyətinə başlayıb. İyunun 8-də Milli Təhlükəsizlik Şurası (MTŞ) Prezident Rəcəb Tayyib Ərdoğanın sədrliyi ilə yeni üzvlərlə bir araya gələcək.**

> “Türkiyə yüz ili” layihəsinin həyata keçirilməsi üçün kritik dönəmdir. Bunların hamısı dəyərləndirilərək nazirlər hazırkı şəxslər seçilib”

Prezident İqamətgahında keçiriləcək iclas həm də yeni Nazirlər Kabinetinin ilk MTŞ iclası olacaq. Toplantıya vitse-prezident Cevdet Yılmaz, ədliyyə naziri Yılmaz Tunç, xarici işlər naziri Hakan Fidan, daxili işlər naziri Əli Yerlikaya, milli müdafiə naziri Yaşar Gülər, Baş Qərargah rəisi ordu generalı Musa Avsever və digər rəsmilər qatılacaq. Yəni daha əvvəl Milli Kəşfiyyat Təşkilatının rəhbəri kimi toplantıya qatılan Hakan Fidan xarici işlər naziri, Baş Qərargah rəisi olan Yaşar Gülər Milli müdafiə naziri, İbrahim Kalın isə MİT-in rəhbəri kimi iclasda iştirak edəcək. İclasda Şimali İraq və Suriyada həyata keçirilən terrorla mübarizə əməliyyatları başda olmaqla strateji, regional və milli təhlükəsizlik məsələlərinin müzakirə edilməsi gözlənilir. Türkiyə xarici işlər naziri Hakan Fidan yeni vəzifəsində bir neçə ölkə rəsmiləri ilə təmasa keçib. Azərbaycan xarici işlər naziri Ceyhun Bayramov Hakan Fidanla telefon danışığında onu ölkəmizə səfərə dəvət edib. Yeni nazir təbriklərə və xoş sözlərə görə nazir Ceyhun Bayramova təşəkkür edib və ölkəmizə səfər dəvətini məmnuniyyətlə qəbul edib. Tərəflər, iki ölkə arasında qardaşlıq, dostluq və strateji tərəfdaşlıq münasibətlərinin müxtəlif aspektlərinə və regional məsələlərə dair fikir mübadiləsi aparıblar. Hakan Fidanla yunan həmkarı Vasilis Kaskarelis arasında da telefon danışığı baş tutub. Söhbət zamanı qeyri-qanuni miqrasiya mövzusu müzakirə olunub. Kaskarelis həmçinin həmkarını yeni vəzifəyə təyinat alması münasibətilə təbrik edib. Fidanın əlaqə saxladığı digər ölkə İran olub. İran xarici işlər naziri Hüseyn Əmir Abdullahian iki ölkə arasında sıx əməkdaşlığın yeni dövrdə də davam edəcəyinə və daha da yaxşılaşacağına ümidvar olduğunu bildirib. Nazir, həmçinin ikitərəfli əlaqələrin sürətləndirilməsinin vacibliyini vurğulayıb. İranın baş diplomatı iki ölkənin regional məsələlərdə əməkdaşlığını vacib hesab etdiyini qeyd edib.

**AĞ Partiya sədri Tural Abbaslı ”Şərq”ə açıqlamasında bildirib ki, heç kim Türkiyənin daxili siyasətini, yeni kabineti formalaşdıran nazirlərin hansı işi necə görəcəyini Prezident R.T.Ərdoğan qədər bilmir. Partiya rəhbərinin sözlərinə görə, nazirlərin kimliyi, şəxsi keyfiyyətləri, təcrübələri, bilik və bacarıqları, keçmiş fəaliyyəti günlərlə müzakirə olunub, ölçülüb-biçilib:** ”İlkin təəssürat odur ki, çox peşəkar bir hökumət formalaşıb. İşini bilən, sahəsinə yaxından bələd olan insanların vəzifə başına gətirildiyi görünür. Siyasi təyinatdan daha çox peşəkarlığa önəm verilib. Ərdoğanın da prezidentliyinin son dönəmidir. ”Türkiyə yüz ili” layihəsinin həyata keçirilməsi üçün kritik dönəmdir. Bunların hamısı dəyərləndirilərək nazirlər hazırkı şəxslər seçilib. Mən pozitiv qiymətləndirirəm. Hakan Fidan, İbrahim Kalın, Mehmet Şimşek və digərləri Azərbaycan cəmiyyətinə çoxdan tanışdır. Əminəm ki, yeni nazirlər qarşılarına qoyulan tapşırıqların öhdəsindən gələ biləcəklər. Burada Ərdoğan faktorunu da nəzərə almaq lazımdır. Nazirlər öz-özlüyündə srtategiya, kurs müəyyən etmirlər, prezidentin müəyyənləşdirdiyi hədəflər uğrunda çalışırlar. Əsas odur ki, Azərbaycanla münasibətlər yüksələn istiqamətdə inkişaf etsin. Türkiyə ilə paralel Azərbaycanda güclənsin, yüksəlsin”.

**İsmayıl Qocayev**



# Paşinyan məmnundur

Regional kommunikasiyaların açılması məsələsində irəliləyiş əldə olunub

**Ermənistanın Baş naziri Nikol Paşinyan Soçiyə səfəri çərçivəsində rusiyalı həmkarı Mixail Mişustinlə görüşü zamanı Azərbaycanla regional nəqliyyat kommunikasiyalarının açılması prosesində irəliləyişdən danışıb.**

APA xəbər verir ki, bu barədə Ermənistan Nazirlər Kabinetinin mətbuat xidmətindən bildirilib.

”Nəqliyyat kommunikasiyalarının açılması üzrə İşçi Qrupun son iclası zamanı nəzərəçarpacaq irəliləyiş qeydə alınıb və mən bundan çox məmnunam”,- deyə Paşinyan bildirib.

Ermənistanın hökumət başçısı ölkəsinin regionda nəqliyyat kommunikasiyalarının açılması üçün hazır olduğunu qeyd edib:

”Biz konkret təkliflərimizi vermişik və ümid edirəm ki, bu təkliflər qəbul olunacaq. Bu, bizim son iki il ərzində işləyib hazırladığımız kompromis həllərdir”, - deyə erməni Baş nazir bildirib.

# "Barışıq prosesi alternativi olmayan yol xəritəsidir"

Mariya Zaxarova: “Azərbaycan və Ermənistanın mövqelərinin yaxınlaşması bizim üçün həmişə prioritet olaraq qalır”



**Azərbaycan və Ermənistanın mövqelərinin yaxınlaşması, dayanıqlı balanslaşdırılmış qərarların hazırlanması Moskva üçün həmişə prioritet olaraq qalır.**

Bu barədə Rusiya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarova Ermənistan və Azərbaycan arasında normallaşma prosesini şərh edərkən deyib.

M.Zaxarova bildirib: ”Biz dəfələrlə bəyan etmişik ki, ölkələrimizin liderlərinin bəyanatları əsasında Bakı və İrəvan arasında münasibətlərin normallaşması üzrə üçtərəfli formatda (Rusiya, Azərbaycan, Ermənistan) iş aparırıq. Biz hesab edirik ki, üçtərəfli danışıqlar kompleksi Rusiyaya qardaş olan iki xalq arasında barışıq prosesi üçün alternativi olmayan yol xəritəsidir”.

Rusiya XİN-in rəsmi nümayəndəsi əlavə edib ki, bu prosesin öz istiqamətləri, formatları, danışıqlar prosesinə məxsus dinamikası, əlavə rıçaqları var.

M.Zaxarova deyib: ”Biz heç nəyi qabaqlamağa cəhd etmirik, nəzərdə tutulan plan üzrə hərəkət edirik, razılaşdırılmış bütün məsələləri həyata keçiririk. Azərbaycan və Ermənistanın mövqelərinin yaxınlaşması, dayanıqlı balanslaşdırılmış qərarların hazırlanması bizim üçün həmişə prioritet olaraq qalır. Gələcəkdə də məhz bu yanaşma üzrə, belə şəraitdə qarşılıqlı fəaliyyət göstərməyə hazırıq”.

# Roma Papası bağırsağından əməliyyat olunacaq



**Roma Papası I Fransisk xəsətxanaya yerləşdirilib, əməliyyat olunacaq.**

APA BBC-yə istinadən xəbər verir ki, 86 yaşlı Papa Fransisk bu gün günortadan sonra təcili olaraq Romadakı Agostino Gemelli Universiteti Xəstəxanasına yerləşdirilib.

Vatikandan verilən məlumata görə, pontifik bağırsağından əməliyyat olunacaq və əməliyyatdan sonra bir neçə gün xəstəxanada qalacaq.

# İlin sonunda Brüsseldə sülh sazişi imzalana bilər



## ABŞ və Avropa Birliyi prosesi ən qısa zamanda yekunlaşdırmaq üçün Ermənistana qarşı təzyiqləri gücləndirir

**Mayın 14-də Avropa İttifaqının rəhbərlik etdiyi sülh danışıqlarına Azərbaycan və Ermənistanın yenidən cəlb olunmasını səmimiyyətlə alqışlayırıq. Bu barədə Aİ-nin ATƏT-dəki Nümayəndəliyinin Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramovun ötən gün ATƏT-in Daimi Şurasının xüsusi iclasında çıxışına dair bəyanatında bildirilib.**

Qeyd olunub ki, iyunun 1-də Kişineuda Fransa və Almaniya liderlərinin də iştirakı ilə keçirilən görüş onların prosesə sadiqliyini bir daha nümayiş etdirdi: "Biz danışıqların Azərbaycanla Ermənistan arasında ədalətli və hərtərəfli sülhə nail olmaq üçün yeganə yol olduğunu bir daha vurğulayırıq. Nəticə etibarı ilə, dialoqda davamlılıq və konkret nəticələr proses üçün həlledici əhəmiyyət kəsb edir. Biz Bakının 21 iyulda Aİ-nin vasitəçiliyi ilə keçiriləcək növbəti iclasında iştirakını təqdir edirik. Burada daha da irəliləyiş əldə olunmalıdır". Bəyanatda, Azərbaycana Qarabağdakı erməni əhalisinin hüquqlarını və təhlükəsizliyini qoruyan müsbət gündəm hazırlamaq istiqamətində çağırış edilib: "Eyni zamanda biz bütün tərəfləri düşmənçilik ritorikasından çəkinməyə və bunun əvəzinə etimad yaradan və sülh danışıqları üçün əlverişli mühit yaradan narrativi təbliğ etməyə çağırırıq. Xüsusilə saxlanılanların azad edilməsi ilə bağlı əlavə etimad yaradıcı tədbirlər də həyata keçirilməlidir". O da vurğulanıb ki, Aİ minatəmizləmə fəaliyyətlərinə dəstək təklif etməyə davam edəcək: "Biz minalanmış ərazilərin müəyyən edilməsi üçün tərəflər arasında əməkdaşlığın vacibliyini vurğulayırıq".

**Bəyanatı "Şərq"ə dəyərləndirən politoloq Elçin Xalidbəyli deyib ki, Cənubi Qafqazda bir çox ölkələrin maraqları və strateji hədəfləri kəskin şəkildə toqquşur. Analitikin sözlərinə görə, rəsmi Bakının əsas hədəfi yekun sülh sazişini məhz Azərbaycanın milli maraqlarına uyğun şərtlər altında imzalamaqdan ibarətdir:** "Azərbaycan artıq bu istiqamətdə müəyyən nəticələr qazanmağa nail olub. Ermənistan Qarabağı Azərbaycanın ayrılmaz tərkib hissəsi kimi tanıyır. Bu, o deməkdir ki, yekun sülh sazişinin imzalanması qarşısında olan ən önəmli problem artıq razılaşdırılıb. Ancaq bu, yetərli deyil. Rəsmi İrəvanın Azərbaycanın Xankəndi və ətraf bölgəsindən Ermənistan ordusunun tör-töküntülərini də dərhal çıxartmalıdır. Əks halda, sülh sazişinin imzalanması üçün vacib olan digər önəmli məqamların müzakirəsinə ehtiyac qalmır. Hazırda bütün hərbi və siyasi-diplomatik üstünlüklər məhz Azərbaycanın əlində cəmləşib. Üstəlik, rəsmi Bakı Ermənistanın beynəlxalq himayədarlarının təzyiq kampaniyalarını da dəf etməyə nail olub. Əksinə, indi rəsmi Bakı Ermənistana qarşı beynəlxalq təzyiqlərin əsas stimulverici mərkəzinə çevrilib. Və Azərbaycan indi Ermənistan üçün real hərbi-siyasi iradə mərkəzidir. Məsələ ondadır ki, Ukrayna savaşından sonra Azərbaycan Avropa Birliyi ölkələri üçün əsas enerji qaynağına çevrilib. Hər halda, Avropa Birliyi ölkələrinin enerji təhlükəsizliyi sistemində Azərbaycan həlledici təsir gücünə malikdir. Rəsmi Bakı bu önəmli faktordan Azərbaycanın geopolitik maraqları çərçivəsində maksimum səviyyədə istifadə etməyə çalışır".

**E.Xalidbəyli vurğulayıb ki, vaxtilə erməni yalanlarına istinadən Azərbaycanı ittiham etmək vərdişlərinə malik olan əksər Qərb ölkələri indi rəsmi Bakı ilə münasibətləri korlamaqdan ciddi şəkildə çəkinirlər:** "Ümumi vəziyyət ondan ibarətdir ki, hazırda ABŞ və Avropa Birliyi Azərbaycanla ən qısa zamanda yekun sülh sazişini imzalaması üçün Ermənistana qarşı təzyiqləri gücləndirir. Düzdür, Rusiya və Fransa hələ də Ermənistanın yekun sülh sazişindən yayınması üçün Brüssel prosesini israrla pozmağa çalışırlar. Ancaq ABŞ və bəzi Qərb ölkələri regional sülhün və sabitliyin təmin olunması istiqamətində daha qətiyyətli mövqe tuturlar. Bütün bunları nəzərə aldıqda, Cənubi Qafqazda sülh prosesinin gələcək inkişaf perspektivləri 21 iyulda keçiriləcək Brüssel görüşündə böyük ölçüdə müəyyən olunacaq. Böyük ehtimalla bu ilin sonuna doğru 30 illik problem yekun sülh sazişini ilə aradan qaldırıla bilər. Onu da qeyd etmək lazımdır ki, Azərbaycan və Ermənistan arasında yekun sülh sazişini heç bir halda, Rusiya vasitəçiliyi ilə Moskvada imzalanmayacaq. Hazırda sülh prosesini intensivləşdirərək, təşəbbüsü Rusiyanın əlindən almağa nail olmuş ABŞ və Qərb Moskva variantına qətiyyən imkan verməz. Böyük ehtimalla Azərbaycan və Ermənistan arasında sülh sazişinin yekun mətni ABŞ-nin vasitəçiliyi ilə məhz Vaşinqton görüşündə prinsipial olaraq razılaşdırılacaq. Ancaq Azərbaycan və Ermənistan yekun sülh sazişini ABŞ-nin də birbaşa iştirakı ilə məhz Avropa Birliyi ölkələrindən birinin paytaxtında imzalayacaqlar. Bu hadisə yaxın vaxtlarda Brüsseldə də reallaşa bilər".

**İsmayıl Qocayev**



# Ankara-Paris xəttində nə gözlənilir?

## Türkiyənin yeni hökuməti dünyanın diqqətindədir

Fransa mediası Ankara-Paris xəttindəki fövqəladə aktivliyi xüsusi xəbərlə oxucularına çatdırıb

**İki nazirdən başqa bütün kabinetin dəyişdirildiyi Türkiyənin yeni hökumət üzvləri beynəlxalq medianın manşetlərinə daşınıb.**

"Şərq" qəzeti Türkiyə mediasına istinadən xəbər verir ki, Yunanıstanda çıxan "To Vima" qəzeti "Ərdoğanın kabinetinin əsas şəxsiyyətlərinin sirləri və rolları" başlıqlı xəbərində Türkiyədə seçkilərdən sonra təyin olunan yeni nazirlərə diqqət çəkib. Prezident Ərdoğan tərəfindən maliyyə naziri təyin edilən Mehmet Şimşəyə və milli müdafiə naziri Yaşar Gülərə xüsusi diqqət yönəldən qəzet Xarici İşlər Nazirliyinin kreslosunda əyləşən MİT-çi Hakan Fidanı oxuculara uzun-uzadı təqdim edib.

**"Əl-Cəzirə"** nəşri öz səhifəsində "Akademik və diplomatik karyeradan Türkiyənin kölgə adamına qədər - Ərdoğan İbrahim Kalını niyə kəşfiyyat şefi təyin etdi?" başlıqlı məqalə verib. Nəşrin məlumatına görə, Ərdoğan Hakan Fidanın yerinə İbrahim Kalını təyin etməklə hamını təəccübləndirib. "Əl-Cəzirə" qeyri-ənənəvi akademik keçmişə sahib olan Kalının ondan sonra diplomatiyada yüksəldiyini qeyd edib.

**"BBC" Agentliyi "İbrahim Kalın:** İllərdir yanında olan Ərdoğanın xarici siyasət müşaviri MİT-in yeni rəhbəri oldu" və yeni məxfi xidmət rəisinin Malayziyada başlayan akademik karyerasının təfərrüatlarını yazıb. Nəşr "İllərdir prezidentlik edən Kalının nə prezidentlik saytında, nə də başqa bir rəsmi saytda tərcümeyi-halı yoxdur" ifadəsini işlədərək İbrahim Kalının akademik məzuniyyətlə gəldiyi 2004-cü ildə Türkiyədə siyasətə girdiyini bildirib. O vaxt Ərdoğanın tələbi ilə beyin mərkəzi yaratmaq üçün qollarını çırmalayan Kalının "Əslində niyyətim o işi edib universitetə qayıtmaq idi. Amma belə oldu. Mən 2009-cu ildə Baş nazirin baş müşaviri vəzifəsində işləməyə başladım" ifadəsi oxuculara yenidən xatırladılıb. İbrahim Kalının ABŞ-la münasibətlərin aparılmasında alternativ kanal olaraq ön plana çıxdığını qeyd edən BBC xəbərini bu cümlələrlə yekunlaşdırıb: "Onun bu təyinatla başladığı yeni karyerasında necə bir yol keçəcəyi, performansının necə olacağı maraqla izləniləcək".

**Fransanın "Le Monde" qəzeti** "Ərdoğan Türkiyədə daha ortodoks pul siyasətini nəzərdən keçirir" başlığı ilə məqalə dərc edərək yeni kabineti iqtisadi baxımdan liberal və sosial baxımdan mühafizəkar adlandırıb. Fransanın "L'Opinion" qəzeti isə Ankara-Paris xəttindəki fövqəladə aktivliyi xüsusi xəbərlə oxucularına çatdırıb: "Fransa lideri Makron mayın 28-də seçkilərin ikinci turunun keçirildiyi axşam "Türkiyə" tvitter mesajı ilə Prezident Ərdoğanı təbrik edib. Bildirib ki, Fransa və Türkiyənin birlikdə öhdəsindən gəlməli böyük çətinlikləri var. Avropanın sülhün qaytarılması, Avrasiya İttifaqımızın gələcəyi, Aralıq dənizi: "Yenidən seçilməsi münasibətilə təbrik etdiyim Prezident Ərdoğanla biz irəliləməyə davam edəcəyik".

**İsmayıl**

# Azərbaycana da Ailə və Gənclik Bankı lazımdır

## Bəlkə Türkiyədəki qərardan sonra bizim hökumət də "qonşudan geri qalma" deyib, belə bir proqram tətbiq edər

**Türkiyədə Ailə və Gənclik Bankı qurulacaq. Bunu Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan deyib. Bu bank vasitəsilə yeni ailə quran cütlüklərə və gənclərə faizsiz kreditlərin verilməsi nəzərdə tutulur.**



Evsizlik və mənzil problemi bizim ölkəmiz üçün də aktual məsələdir. Mənzil qiymətləri baha, bank faizləri isə o qədər yüksəkdir ki, yeni evlənib ipoteka ilə ev götürən cütlüklər nəvələrinə belə kredit borcu qoyub gedir. Hələ bu, ən yaxşı haldır. Əksər gənclər heç ipotekaya yaxın dura bilmir. Düşünürəm, bir-bir sadalamağa ehtiyac yoxdur, onsuz da bunlar hamının bildiyi məlum problemlərdir. Təsadüfi deyil ki, mənzil probleми səbəbindən Dövlət Statistika Komitəsinin məlumatlarında evlilik yaşının xeyli artdığını görürük. Yeni əvvəllər cütlüklər daha tez ailə qurmağa üstünlük verirdilərsə, son illərdə vəziyyət dəyişib. Belə ki, 2011-ci ildə 25-34 yaşda ailə quran bəylərin sayı 48 min 241, 2021-ci ildə isə 38 min 211 olub. Eyni dövrdə müvafiq yaş qrupları üzrə ailə quran qadınların sayı 21 min 226, 2021-ci ildə isə 17 min 206 olub.

Sözümün canı, Azərbaycanda faizsiz kreditlər mövzusu dəfələrlə gündəmə gətirilsə də, hələlik məsələ ilə bağlı konkret addım atılmayıb. Bəlkə Türkiyədəki qərardan sonra bizim hökumət də "qonşudan geri qalma" deyib, belə bir proqram tətbiq edər...

**Azərbaycanda vəziyyətin fərqli olduğunu bildirən iqtisadçı-ekspert Eldəniz Əmirov isə ölkənin sosial və investisiya proqramlarının Qarabağın bərpasına yönəldildiyini deyib:** "Bu səbəbdən Azərbaycanda gənc ailələrə faizsiz kredit verilməsi prioritet ola bilməz". Onun sözlərinə görə, istənilən bir sosial-iqtisadi layihəni həyata keçirmək üçün dövlətin hüquqi və maddi bazası olmalıdır: "Hazırda ciddi maliyyə sıxıntısı yaşayan Türkiyədə Ailə və Gənclik Bankı hansı vəsaitlər hesabına qurulacaq, yeni evlənən cütlüklərə faizsiz kreditlər necə veriləcək. Ölkənin milli valyutası hər gün rekord həddə dəyər itirir, inflyasiya dərinləşir, üstəlik, 85 milyonluq ölkədə nə qədər yeni evlənən cütlük olacaq. İndiki reallıqda Türkiyə iqtisadiyyatının bu qədər ağır bir maddi yükü olan proqramı həyata keçirəcəyinə inanmıram. Bu ideyanın özünü doğrultması gənclər üçün təqdirəlayiq hal olsa da, ölkə iqtisadiyyatı üçün ciddi böhran yaradar. Türkiyə gələcəkdə bu proqramı reallaşdırmaq gücündə ola bilər, amma indi yox".

*İqtisadçının sözlərinə görə, yeni ailə quran gənclərə faizsiz kreditlərin verilməsi, onların mənzil şəraitinin yaxşılaşdırılması üçün başqa sosial-iqtisadi layihələrin həyata keçirilməsi təkcə Türkiyə üçün yox, bütün ölkələr üçün arzuolunandır. Azərbaycanda da gənclər üçün belə bir imkanların yaradılmasını çox istərdim:* "Amma reallığı da inkar etmək düzgün deyil. Ən azından yaxın 5 il ərzində Azərbaycanda belə bir layihənin həyata keçirilməsi real deyil. Çünki bu gün Azərbaycanda dəstəyə ehtiyacı olan daha vacib sahələr var. Düzdür, gənclərin mənzil şəraitinin yaxşılaşdırılması da ölkə üçün kifayət qədər əhəmiyyətli bir məsələdir və çox istəyərdim ki, yaxın illərdə bu istiqamətdə hansısa bir proqramlar olsun. Lakin ölkə reallığı ilə danışsaq, indi hökumət üçün əsas məsələ iqtisadiyyatın dirçəlməsinə təkan verən sahələrə vəsait ayırmaqdır. Burada söhbət əməkhaqlarının, pensiyaların artırılmasından, uşaqpulunun tətbiqindən, yeni iş yerlərinin açılmasından gedir. Hazırda işğaldan azad olunmuş ərazilərdə yenidənqurma və bərpa işlərinin görülməsi ölkə üçün mühüm faktordur. Dövlət və cəmiyyət üçün prioritet olan bu məsələlər həll olunduqdan sonra Azərbaycanda gənc ailələrə faizsiz kredit verilməsi ilə bağlı müzakirə açmaq olar. Yuxarıda da qeyd etdiyim kimi, bu da yaxın 5 il üçün gözlənilən deyil".

> "Azərbaycanda gənc ailələrə faizsiz kredit verilməsi ilə bağlı müzakirə açmaq olar. Yuxarıda da qeyd etdiyim kimi, bu da yaxın 5 il üçün gözlənilən deyil"

**Şeymən**

# "Onlar Xocalıda nə qədər qana susamış olduqlarını göstərib"

## Fazil Mustafa: "Ermənilərin Mingəçevirdə törətmək istədikləri, Koxovkada baş verənlərlə eyni niyyəti daşıyır"



**Rusiyanın işğalı altında olan Ukraynanın Xerson vilayətinin Yeni Kaxovka rayonunda Kaxovka Su Elektrik Stansiyası (SES) dağıdılıb. Ukraynanın "Cənub" operativ komandanlığı SES-i Rusiyanın partlatdığını açıqlayıb.**

SES-in partladılması ciddi fəlakətlərə yol açıb. Məlumata görə, Kaxovka su anbarında suyun səviyyəsinin qalxması səbəbindən Rusiya Yeni Kaxovka, Qolopristansk və Aleşkinsk yaşayış məntəqələrinin əhalisini təxliyə etməyə başlayıb. "Cənub" Əməliyyat Komandanlığının məlumatına görə, Dnepr çayı yaxınlığında yerləşən qəsəbələri sel təhlükəsi gözləyir. Xerson şəhərinin sağ sahilində və daşqın gözlənilən kəndlərdə əhalinin avtobuslarla təxliyəsinə başlanılıb. 7 nəfərin itkin düşdüyü bildirilir. Şübhəsiz, Kaxovka şəhərində yerləşən su-elektrik stansiyasının bəndinin partladılması hərbi cinayətdir. Çünki hədəfdə mülki insanların həyatı var.

Rusiyanın bu hərəkəti Ermənistanın 44 günlük Vətən savaşı zamanı, 2020-ci ilin oktyabr ayında bənzər təxribata cəhd etməsini xatırladır. Xatırladaq ki, 2020-ci ilin oktyabr ayı boyunca ermənilər bir neçə dəfə Mingəçevir su-elektrik stansiyasının (SES) bəndini partlatmağa səy göstərmişdi. Şübhə yox ki, Mingəçevir SES kimi böyük bir su hövzəsi dağıdılsaydı, rayonlarımız su altında qala bilərdi. Ermənilər öz çirkin məqsədlərinə nail olmaq üçün SES-i uzaqmənzilli raketlərlə dəfələrlə vurmağa cəhd etsələr də, hava hücumundan müdafiə sistemimiz düşmənin raketlərini dərhal məhv etdi. Ermənistan da bu hərəkəti cəbhə zonasından 100 km-dən artıq uzaqlıqda yerləşən, iri sənaye şəhəri Mingəçevirə raket atmaqla beynəlxalq hüququn bütün normalarını, o cümlədən 1949-cu il tarixli Cenevrə Konvensiyaları və onların Əlavə Protokollarını kobud surətdə pozmuşdu.

**Hadisənin böyük bir cinayət olduğunu deyən millət vəkili Fazil Mustafa "Şərq"ə bildirib ki, partlayışın kimin tərəfindən törədildiyi araşdırılmalıdır:** "Bu barədə qarşılıqlı ittihamlar var. Daha çox ehtimal edilir ki, bu SES Rusiyanın nəzarəti altındadı və onlar tərəfindən partladılıb. Ancaq kimin tərəfindən partladıldığı ilə bağlı konkret sübutlar ortaya qoyulmalıdır. O zaman vəziyyəti daha aydın təsvir etmək olacaq. Bütövlükdə isə bu hadisə onu göstərdi ki, müharibənin qanunları çox sərtdir və bir dövlətin insanlarının taleyini belə üsullarla həll etmək olmaz. Bu, ilk növbədə böyük bir ekoloji fəlakət yaradır. İkinci isə insanların evsiz-eşiksiz qalmasına səbəb olur. Əməli törədənlər mütləq cinayətə cəlb edilməlidir. Ona görə ki, bu hücum hərbi qanunlar çərçivəsindən çıxan bir addımdır".

*Parlamentarinin sözlərinə görə, ermənilərin törətdikləri vəhşilikləri ruslarla müqayisə etmək olmaz:*

"Yeni onlar Xocalıda nə qədər qana susamış olduqlarını göstərib. Mingəçevir SES-nin vurulmasına da bu cür baxırdılar. Ümumiyyətlə, onlar üçün humanist və insani yanaşma faktoru yoxdur. Ruslarda ən azından yad bir cəmiyyətə öz içində yaşatmaq imkanı var. Necə ki, indi orada müxtəlif xalqların təmsilçiləri yaşaya bilir. Lakin Ermənistanda bu yoxdur. Bədnam qonşularımız bu vəhşiliyi digər xalqlara qarşı da törədib. Biz də bu kontekstdə Ermənistanın müqayisəsiz vəhşiliyini qəbul etməliyik. Digər tərəfdən, onların Mingəçevirdə törətmək istədikləri, Koxovka da baş verənlərlə eyni niyyəti daşıdığı aşkardır. Ümid edək ki, Ermənistanın bundan sonra belə imkanları olmayacaq və öz qabığına sığışan dövlət kimi Qafqazda qarışıqlıq yaratmaq istəyindən əl çəkəcək".

**Nihat Müzəffər**

# Kaxovka SES qəsdən dağıdılıb

## Nüvə müharibəsi start götürə bilər

**Rusiyanın işğalı altında olan Ukraynanın Xerson vilayətinin Yeni Kaxovka rayonunda Kaxovka Su Elektrik Stansiyası (SES) dağıdılıb. Ukraynanın "Cənub" operativ komandanlığı SES-i Rusiyanın partlatdığını açıqlayıb. Xatırladaq ki, Kaxovka SES Ukraynanın cənubundakı rayonların elektrik, enerji, suvarma və su təchizatı, eləcə də Xersondan Zaporojyeyə naviqasiya üçün Dnepr axınının illik tənzimlənməsini təmin edirdi.**



Ermənilər də Mingəçevir SES-ə qarşı eyni vəhşiliyə cəhd etmişdi

Kaxovka SES 2022-ci ilin fevralında Şimali Krım kanalı ilə birlikdə Rusiya tərəfindən işğal olunub. SES-in partladılması ciddi fəlakətlərə yol açıb. Məlumata görə, Kaxovka su anbarında suyun səviyyəsinin qalxması səbəbindən Rusiya Yeni Kaxovka, Qolopristansk və Aleşkinsk yaşayış məntəqələrinin əhalisini təxliyə etməyə başlayıb. "Cənub" Əməliyyat Komandanlığının məlumatına görə, Dnepr çayı yaxınlığında yerləşən qəsəbələri sel təhlükəsi gözləyir. Xerson şəhərinin sağ sahilində və daşqın gözlənilən kəndlərdə əhalinin avtobuslarla təxliyəsinə başlanılıb. 7 nəfərin itkin düşdüyü bildirilir. Şübhəsiz, Kaxovka şəhərində yerləşən su-elektrik stansiyasının bəndinin partladılması hərbi cinayətdir. Çünki hədəfdə mülki insanların həyatı, varidatdır. Bu nəhənglikdə su bəndinin dağıdılması bütöv bir dənizin dinc əhalinin üzərinə axıdılmasıdır. Söhbət 40 mindən artıq insanın taleyindən gedir. Təxliyə vaxtında reallaşmazsa, minlərlə şəxs sel və daşqınların qurbanına çevrilə bilər. Aydın məsələdir ki, belə ağılsız və şüursuz bir addım məğlubiyyətin qaçılmaz olduğunu görən tərəfin son çırpınışları, ölüm ayağında istənilən təxribata əl atmasıdır. Qalib gələcəyinə əmin olan tərəf heç vaxt hərbi cinayətlərə əl atmaz, mülki insanları hədəf alaraq öz acizliyini nümayiş etdirməz.

Rusiyanın bu hərəkəti Ermənistanın 44 günlük Vətən savaşı zamanı, 2020-ci ilin oktyabr ayında bənzər təxribata cəhd etməsini xatırladır. Xatırladaq ki, 2020-ci ilin oktyabr ayı boyunca ermənilər bir neçə dəfə Mingəçevir su-elektrik stansiyasının (SES) bəndini partlatmağa səy göstərmişdi. Şübhə yox ki, Mingəçevir SES kimi böyük bir su hövzəsi dağıdılsaydı, rayonlarımız su altında qala bilərdi. Ermənilər öz çirkin məqsədlərinə nail olmaq üçün SES-i uzaqmənzilli raketlərlə dəfələrlə vurmağa cəhd etsələr də, hava hücumundan müdafiə sistemimiz düşmənin raketlərini dərhal məhv etdi. Ermənistan da bu hərəkəti cəbhə zonasından 100 km-dən artıq uzaqlıqda yerləşən, iri sənaye şəhəri Mingəçevirə raket atmaqla beynəlxalq hüququn bütün normalarını, o cümlədən 1949-cu il tarixli Cenevrə Konvensiyaları və onların Əlavə Protokollarını kobud surətdə pozmuşdu.

**Milli Dirçəliş Hərəkatı Partiyasının sədri, keçmiş millət vəkilləri "Şərq"ə açıqlamasında deyib ki, Ukrayna ərazisini işğal edən rusların hansı aqibətlə üzləşəcəyi əvvəlcədən proqnozlaşdırılmışdı. Partiya rəhbərinin sözlərinə görə, o da müharibə başlayanda bildirmişdi ki, bu savaşda rusların qələbəsi qeyri-mümkündür:** "Çünki Rusiya haqsız tərəfdir. Ukraynanın ərazisi böyükdür, əhalisi də çoxdur. Məlum idi, Rusiya Ukraynanın kiçik bir ərazisində lokal müharibə ilə kifayətlənəcəkdi. Əlbəttə, müharibə böyükdür, amma kiçik bir ərazidə aparılır. Buna rəğmən, Rusiyanın "böyük siyasəti", "nəhəng və güclü dövlət" imici ifşa olundu. Rusiya hazırda Ukraynanın əks-hücumları qarşısında dözümsüz vəziyyətdədir. Ona görə də müxtəlif üsullara əl atır. Kaxovka SES-in guya Ukrayna tərəfindən vurulduğunu iddia edir, mülki sakinlərin öz orduları tərəfindən hədəf alındığını vurğulayır və s. Amma şübhə yox ki, bunu edən Rusiyadır, çünki məğlub vəziyyətdədir və çalışır ki, qarşı tərəfə mümkün qədər ciddi zərər versin. Hesab edirəm ki, məğlubiyyətin son anında daha böyük fəlakətlər yaşana bilər. "Cəhənnəmə gedən, özünə yoldaş axtarar" deyimi var. Putin də vaxtı ilə söyləmişdi ki, "Rusiyasız dünya nəyə lazımdır". Rusiya Ukraynanı davamlı olaraq nüvə silahı ilə hədələsə də, buna risk etmir. Məqsəd müharibənin sonunda məğlubiyyət üçün bəhanə tapmaqdır. Ona görə də təbliğat aparırlar ki, "Rusiya Qərblə savaşır, o səbəbdən güclər qeyri-bərabərdir". Digər yandan Rusiya daxildəki dəstəyini də ciddi şəkildə itirib. O baxımdan SES-i dağıtmaqla Ukraynanı növbəti böyük "faciəli düşmən" kimi təqdim etməklə növbəti səfərbərliyə hazırlıq görür. Rusiya cəbhədə, döyüş bölgəsində nailiyyət əldə edə bilmir. Fikir verirsizsə, ancaq raketlərlə dinc şəhərləri vurur. Lakin belə bləflər sonun yaxınlaşmasına mane ola bilməyəcək".

**Millət vəkili Elman Nəsirov da "Şərq"ə deyib ki, belə texnogen partlayışları müşahidə edərkən yadımıza ikinci Qarabağ savaşı düşür:** "Həmin müharibənin gedişatında da Ermənistan silahlı qüvvələrinin Mingəçevir Su Elektrik Stansiyasını dəfələrlə hədəfə alması barəsində təsdiqlənmiş faktlar var. Düzdür, həmin ərəfədə Azərbaycanın hava hücumlarından müdafiə sistemləri raketləri göydə vuraraq, dəhşətli fəlakətin qarşısını aldı. Ancaq Ermənistan ciddi-cəhdlə belə bir terrakt törətməklə Azərbaycanı çıxılmaz duruma salmağa çalışırdı. Bizim şanlı ordumuz isə bu təhlükəni neytrallaşdıra bildi. Lakin təəssüf ki, bu gün Ukraynada proseslər arzuolunmaz ssenarilərin reallaşmasına gətirib çıxarır. Həmçinin indi taktiki nüvə silahından istifadə edilə bilməz fikirləri də tənqidə dözmür. Əgər bu cür nəhəng SES partladılıbsa, daha təhlükəli ssenarilərin baş verməsi də labüddür".

*E.Nəsirovun sözlərinə görə, böyük dövlətlər planetimizi gözləyən böyük təhlükənin qarşısını almaq üçün həlledici addım atmalıdırlar:* "Zaman təkcə Rusiya və Ukraynanın deyil, bütün planetin əleyhinə işləyir. Hadisələrin elə bir inkişaf xətti ilə yüksəlmə ehtimalı var ki, bütün planetin məhvinə səbəb olacaq, nüvə müharibəsi start götürə bilər. Bu reallıq fonunda müharibənin dayandırılması ilə bağlı çox ciddi addımlar atılmalıdır".

İsmayıl Qocayev

**İstanbul bələdiyyəsinin sədri Əkrəm İmamoğlu mətbuata açıqlama verib.**




# Əkrəm İmamoğlu CHP-ni tənqid etdi

## "Eyni yolda getməklə növbəti səhvi edə bilmərik"

"Şərq" Türkiyə mediasına istinadən xəbər verir ki, İstanbul bələdiyyə başçısı Əkrəm İmamoğlu Cümhuriyyət Xalq Partiyasının (CHP) seçkilərdə uduzduğunu ifadə edərək, tənqidi fikirlər səsləndirib. İmamoğlu "eyni şeyi edib, eyni yolda getməklə növbəti səhvi edə bilmərik" deyib. Digər tərəfdən, İmamoğlu, "dəyişiklik anlayışını ən güclü tələb edənlər arasındayam" deyib.

CHP-nin Mərkəzi İdarə Heyətinin (MYK) üzvlərinin dəyişilməsinə də toxunan İmamoğlu "Hamımız bilirik ki, dəyişiklik sadəcə idarə heyətində olmayacaq. Dəyişikliyi cəmiyyət, insanlar tələb edir".

Keçən həftə verdiyi açıqlamada güclü dəyişiklikdən bəhs etdiyini dilə gətirən bələdiyyə sədri tam yenilənmədən söz açıb: "Tam bir dəyişiklik, təfəkkür dəyişikliyi, köklü və detallı bir dəyişiklik vurğusu etdim. Eyni yerdən davam edirəm. Yenə deyirəm, dəyişikliyə ehtiyacı mən müəyyən etmirəm, bunu cəmiyyət istəyir. Qulağımızı tıxayaraq yol gedə bilmərik. Qulaqlarımızın açıq olması, cəmiyyətin bütün təbəqələrini dinləməmiz və hər seqmentin nə istədiyini anlamaq çox vacibdir".

İsmayıl

# Sülh müqaviləsi tezliklə imzalanmayacaq

## Fuad Abbasov: "Tərəflər digər formatlarda təmasları davam etdirmək qərarı alacaqlar"



**Ermənistan və Azərbaycan XİN başçıları arasında danışıqların növbəti raundunun tarixi açıqlanıb. Məlumata görə, növbəti görüş iyunun 12-də Vaşinqtonda baş tutacaq. Açıqlamada görüşün detalları barədə məlumat verilməyib.**

Xatırladaq ki, bundan əvvəlki görüş 1-4 may tarixlərində keçirilib. ABŞ-nin Virciniya ştatının Arlinqton şəhərində Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov və Ermənistan Respublikasının xarici işlər naziri Ararat Mirzoyan arasında danışıqlar aparılıb.

**Baş tutacaq görüşün gizlinlərini "Şərq" açan tanınmış jurnalist, siyasi şərhçi Fuad Abbasov bildirib ki, Vaşinqton və Brüssel eyni cəbhədə Rusiyaya qarşı, həm də Qarabağ məsələsinin həlli yönündə fəaliyyət göstərirlər:** "İyunun 12-də baş tutacaq görüş də bunun bariz nümunəsidir. Həmçinin nəzərə almalıyıq ki, həm Avropada, həm də ABŞ də güclü erməni lobbisi var və onlar görüşləri sabotaj edərək öz bildikləri gündəm məsələlərini, problemlərini ortaya atmağa çalışırlar. Amma ABŞ tərəfindən verilən açıqlamalarda isə Cənubi Qafqazda Rusiyanın fəaliyyətlərinə qarşı sülh kampaniyası apardığının şahidi oluruq".

Analitik əlavə edib ki, Vaşinqton formatına rəğmən sülh müqaviləsinin tezliklə imzalanmayacağını düşünür: "Bundan əvvəlki görüşlərdə olduğu kimi, tərəflər digər formatlarda təmasları davam etdirmək qərarı alacaqlar. Çünki Nikol Paşinyan hakimiyyəti sülh müqaviləsini dəstəklədiklərini göstərsələr də, erməni cəmiyyəti sülhə hələ hazır deyil. Həm Paşinyan, həm də rəqibləri bunu yaxşı bilərək, siyasi oyunlarında istifadə edirlər. Siyasiləşdirilmiş bir erməni ictimaiyyəti ilə üz-üzə qaldığımız üçün yaxın zamanlarda sülh müqaviləsinin imzalanmasına inanmaq yanlış olar".

Nihat Müzəffər




# Qiymətlər artıb və dövlət büdcəsində kəsr yaranıb

## ABŞ viza rüsumunu yalnız Azərbaycan üçün artırmayıb

**Amerika Birləşmiş Ştatları (ABŞ) Azərbaycan vətəndaşları üçün viza rüsumunu 25 ABŞ dolları artırıb.**

Bu barədə ABŞ-nin Azərbaycandakı səfirliyi məlumat yayıb.

Bildirilir ki, iyunun 17-dən ziyarətçi viza daxil olmaqla, müəyyən qeyri-mühacir vizalar üçün rüsumlar 160 ABŞ dollarından 185 ABŞ dollarına çatdırılacaq.

**Qərara münasibət bildirən iqtisadçı-ekspert Natiq Cəfərli "Şərq"ə söyləyib ki, bu artım təkcə Azərbaycana yox, regionda yerləşən bütün ölkələrin viza rejiminə aiddir:** "Bunu isə ABŞ-də olan yüksək dollar inflyasiyası ilə izah edirlər. Yəni qiymətlər artıb və dövlət büdcəsində kəsr yaranıb. Bu yaxınlarda hətta Amerikanın default ola biləcəyi ehtimalı da var idi. Onlar borc tavanını artıraraq, federal dövlət xərclərini yüksəltməyə nail oldular. İndi isə federal dövlət xərclərinin maliyyələşdirmə mənbələrinin tapılması ilə bağlı bəzi qərarlar alınıb. Bunlardan biri də bizim regiona aid ölkələrdə viza rüsumunun artırılması ilə bağlı qərardır. Rüsumu 25 dollar artırmaqla isə dövlət büdcəsindən dövlət departamentinin xərclərinin maliyyələşdirilməsi düşünülür".

Nihat Müzəffər

# Laçın yolunda buraxılış məntəqəsi saat kimi işləyir

## Ermənilər Azərbaycan bayrağının əzəmətini qəbul edib, bizim torpaqda olduqlarına öyrəşdilər

**Laçın-Xankəndi yolunun girişində quraşdırılmış nəzarət-buraxılış məntəqəsi ay yarımdır ki, fəaliyyət göstərir.**



Qarşıda bizi yeni proses, bir neçə mərhələdən ibarət sülh danışıqları gözləyir

Ay yarım öncə, yeni sərhəd-keçid məntəqəsi qurulduğu zaman günlərlə həm Ermənistan və Rusiyada, həm də İrəvanın Qərbdəki havadarları arasında müzakirə mövzusu olmuşdu. Lakin rəsmi Bakı qətiyyətli mövqeyini sürdürərək Laçın yolundakı buraxılış məntəqəsinin zəruriliyini vurğulamış və sözügedən ərazinin Azərbaycan torpaqları olduğunu bəyan etmişdi. Ötən müddət ərzində Laçın yolundakı postumuz ara-sıra gündəmə gətirilsə də, vaxt keçdikcə proses adiləşdi. Hətta Ermənistandan Xankəndiyə gedən ermənilərin özü üçün də vəziyyət normallaşdı. Xankəndiyə getmək istəyən ermənilər növbəli şəkildə hüquqi yoxlanış prosedurundan keçərək, heç bir maneə olmadan yollarına davam edirlər. Təbii ki, Laçın yolundan qanunsuz gediş-gəlişə, silah-sursat daşınmasına icazə verilmir. Ötən gün Ermənistandan Xankəndiyə gəlmək istəyən mülki geyimli hərbçi "Laçın" sərhəd-buraxılış məntəqəsindən buraxılmayıb. Mülki geyimli şəxsin məhz hərbçi olduğu haqda Azərbaycan sərhəd-keçid məntəqəsində məlumat olması ermənilərin də heyrətə gətirib. Aydın olub ki, Azərbaycan xüsusi xidmət orqanlarında dəqiq məlumat bazası var. Qeyd edək ki, aprelin 23-də Azərbaycan Dövlət Sərhəd Xidmətinin bölmələri tərəfindən ölkəmizin suveren ərazilərində, Ermənistan ilə sərhəddə, Laçın-Xankəndi yolunun başlanğıcında sərhəd-buraxılış məntəqəsi qurulub.

**Beynəlxalq Münasibətlər və Diplomatiya Araşdırmaları Mərkəzinin sədri, politoloq Samir Hümbətov "Şərq"ə deyib ki, Laçın-Xankəndi yolunda quraşdırılmış nəzarət-buraxılış məntəqəsi iki aya yaxındır problemsiz öz işinə davam edir.** Analitik qeyd edib ki, ilk vaxtlarda sərhəd-keçid məntəqəsi ilə bağlı narazılıq görünsə də, bunlar Azərbaycanı narahat edəcək səviyyədə deyildi: "Beynəlxalq hüquqa hörmət edən hər bir dövlət başa düşür ki, Laçın yolu Azərbaycanın suveren ərazisidir. Azərbaycan dövləti ərazisinin istənilən bölgəsində təhlükəsizliyini təmin etmək iqtidarındadır və bu haqqa sahibdir. Rəsmi Bakı da öz hüququndan istifadə edib. O baxımdan hesab edirəm ki, ara-sıra eşidilən hay-küy istisna olmaqla Laçın yolunda qurulan nəzarət-buraxılış məntəqəsinin fəaliyyəti ilə bağlı hansısa ciddi hadisənin baş verməsi real görünmür. Bu məsələdən narahat olmağa dəyməz. Nəzarət-buraxılış məntəqəsi öz fəaliyyətini tam gücü ilə həyata keçirir. Ermənilər də buraxılış məntəqəsində beynəlxalq hüquqlara uyğun, normal qaydada yoxlanılırlar. Bunu Ermənistan, Rusiya, o cümlədən Qərb ölkələri də qəbul ediblər. Məsələ artıq qapadılıb. Qarşıda bizi yeni proses, bir neçə mərhələdən ibarət sülh danışıqları gözləyir".

İsmayıl Qocayev

# Bəhanələrə, süni maneələrə yer qalmadı

## Ermənistan tərəfi sərhədlərin delimitasiya olunmasını birtərəfli qaydada illərlə yubada bilməz



**"Azərbaycan ictimaiyyəti Ermənistanın rəhbər şəxslərinin tez-tez qeyri-adekvat və əsassız açıqlamalarla çıxış etməsinə öyrəşib". Bu barədə "Şərq"ə Milli Həmrəylik Partiyasının sədri Əlisahib Hüseynov deyib.**

Partiya rəhbəri bildirib ki, sərhədlərin delimitasiyası prosesini indiyə qədər müxtəlif bəhanələrlə yubadan Ermənistan tərəfinin indi də məhz 1975-ci il xəritəsinə istinad edilməsini təkid etməsi, həqiqətən də, absurddur: "Sözsüz ki, burada ənənəvi erməni hiyləgərliyi də özünü göstərməkdədir. Məsələ burasındadır ki, digər xəritələrdən fərqli olaraq sözügedən xəritədə anklavlar öz əksini tapmayıb. Bu da müəyyən mənada Ermənistanın maraqlarına cavab verir. Rəsmi İrəvanın bütün cəhfəşənlığı da ilk növbədə bundan qaynaqlanır. Eyni zamanda İrəvan bundan istifadə edərək danışıqları gəzdən dalana dirəyir. Lakin İrəvanın bəhanələri, süni maneələri heç bir nəticə verməyəcək. Çünki delimitasiya prosesi yalnız bir tərəfin istəkləri əsasında aparıla bilməz. Odur ki, Ermənistan delimitasiya prosesində 1975-ci il xəritələrinə istinad edilməsini istəsə də, Azərbaycan tərəfi isə haqlı olaraq bütün hüquqi əhəmiyyətə malik sənədlərin, xəritələrin nəzərdən keçirilməsini tələb edir. Və bu prosesdə diktə etmək haqqı olan tərəf də yalnız Azərbaycandır. Mayın 28-də Laçına səfəri zamanı Azərbaycan Prezidenti İlham Əliyev də bu rayondan olan sakinlərlə görüşdə çıxış edərkən sərhədlərin delimitasiyasının bizim şərtlərimiz əsasında, yəni ədalətli şərtlər əsasında aparılmalı olduğunu xüsusilə qeyd etdi. Ermənistan tərəfi sərhədlərin delimitasiya olunmasını birtərəfli qaydada illərlə yubada bilməz. Ona görə də Ermənistan rəhbərliyi xəritə spekulyasiyası ilə məşğul olmağa dərhal son qoymalıdır və prosesi süni surətdə yubatmaq əvəzinə, delimitasiya işinə başlamaq üçün real addımlar atmalıdır".

İsmayıl

# Heydər Əliyev Azərbaycana dünyada böyük nüfuz qazandırdı

## İlham Əliyevin Dəmir yumruğu ətrafında sıx birləşən xalqımız, bundan sonra da yeni-yeni uğurlara imza atacaqdır!




**Müsəlman Şərqində ilk demokratik Cümhuriyyətin məhz Azərbaycan torpağında yaranması xalqımızın o dövrdə və o illər ərəfəsində - XIX əsrin sonunda və XX əsrin əvvəllərində milli müstəqillik, azadlıq duyğularıyla yaşaması ilə bağlıdır. O illərdə xalqımızın qabaqcıl şəxsiyyətləri, mütəfəkkir adamları, ziaylıları xalqımızı da milli azadlıq, milli müstəqillik duyğularını gücləndirmiş, milli dirçəliş, milli oyanış əhval-ruhiyyəsi yaymış və bunların hamısı məntiqi olaraq Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasına gətirib çıxarmışdır.**

***H.Əliyev***
***Ümummilli Lider.***

İdeyaları ilə əməli fəaliyyəti daim birbirini izləyən Ümummilli Lider H.Əliyev müasir Azərbaycan dövlətinin məhz 1918-ci ildə yaranan Azərbaycan Xalq Cümhuriyyətinin varis olmasını dəfələrlə öz çıxışlarında səsləndirib, eyni zamanda Cümhuriyyətin qurucularının adlarını böyük ehtiramla yad edib, onlara dahi şəxsiyyət deyib: "1918-ci il mayın 28-də Azərbaycanın istiqlaliyyətinin elan edilməsində, Xalq Cümhuriyyətinin təşəkkül tapmasından və fəaliyyət göstərməsində Cümhuriyyətə rəhbərlik etmiş şəxslərin - Əlimərdan bəy Topçubaşovun, Məhəmməd Əmin Rəsulzadənin, Fətəli xan Xoyskinin, Nəsib bəy Yusifbəylinin, Səmədbəy Mehmandarovun, Əliağa Şıxlınskinin və başqalarının böyük xidmətləri olub. Bu görkəmli dövlət xadimlərinin, vətənpərvər ziyalıların, peşəkar hərbçilərin adları xalqımızın yaddaşına əbədi həkk olunub".

1918-ci ildə Cümhuriyyət öz üzərinə götürdüyü çətin tarixi vəzifəni qısa zaman ərzində şərəflə yerinə yetirdi, 23 aylıq fəaliyyəti dövründə xalqın milli mənlik şüurunu özünə qaytardı, öz müqəddəratını təyin etmək qüdrətini dünyaya göstərdi, Azərbaycanın ilk parlamenti və hökuməti yaradıldı, dövlət aparatı təşkil edildi, ölkənin sərhədləri müəyyənləşdirildi. Bayrağı, himni və gerbi qəbul olundu, ordu quruculuğu sahəsində, səhiyyənin, maarifin və mədəniyyətin inkişafına xüsusi diqqət yetirildi. Təhsil milliləşdirildi. Xalqın mədəni yüksəlişi üçün genişmiqyaslı tədbirlər həyata keçirildi. Azərbaycan Respublikasının müstəqilliyinin əsası qoyuldu.

1991-ci ildə müstəqilliyinin bərpasına nail olan xalq özünün qədim dövlətçilik ənənələrinə sadiq qaldığını göstərdi. 28 may gününü həmin vaxtdan etibarən Respublika Günü kimi təntənə ilə qeyd etməyə başladı.

Azərbaycan dövlətçiliyi tarixində Xalq Cümhuriyyətinin 100 illik yubileyi ilə bağlı Sərəncam imzalamaqla yanaşı 2018-ci ilin - "Azərbaycan Xalq Cümhuriyyəti ili" elan edilib. 1918-ci il mayın 28-də Azərbaycanın istiqlaliyyətinin elan edilməsi günü Azərbaycanın müstəqillik günü. 1991-ci ildən 28 may 2022-ci ilədək Respublika günü - Milli Müstəqillik Günü kimi qeyd olundu. 1995-ci il noyabrın 12-də ümumxalq səsvermə yolu ilə Azərbaycanın ilk Konstitusiyası ölkədə hüquqi islahatların həyata keçirilməsinə yol açdı. 1996-cı ildə Hüquqi islahat komissiyası yaradıldı. "Konstitusiya Məhkəməsi", "Məhkəmələr və hakimlər haqqında", "Prokurorluq, Polis haqqında" kimi hüquq sisteminin mahiyyətini müəyyənləşdirən qanun lahiyələri hazırlandı.

1994-cü ildə "Cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi, qanunçuluğun və hüquq qaydasının möhkəmləndirilməsi tədbirləri haqqında" imzalanmış fərman qanunçuluğun və hüquq qaydalarının möhkəmləndirilməsində əsaslı dönüş yaratdı.

Ölkənin sosial-iqtisadi, strateji inkişafında 1994-cü ildə bir sıra güclü dövlətlərlə bağlanılmış "Əsrin müqaviləsi" respublikanın inkişafının sosial bazasına çevrildi. Ötən son 18 il ərzində respublika iqtisadiyyatı 3,2 dəfə artıb, yoxsulluq 44 faizdən təxminən 5 faizə enib, 2 milyondan çox yeni iş yerləri yaradılıb, iqtisadiyyata 280 milyard ABŞ dolları həcmində sərmayə yatırılıb.

Ordumuz dünyanın ən güclü 50 ordusundan birinə çevrilib.

Ulu Öndərin çıxışlarında işlətdiyi ideyalar 30 il işğal altında qalan torpaqlarımızın azad olunmasına, ərazi bütövlüyünün bərpasına gətirib çıxardı.

Xalqa, Vətənə, Dövlətə sədaqətlə xidmət etmiş əbədiaşar Ümummilli Lider H.Əliyev 23 mart 1997-ci ildə - 1919-cu ildə Azərbaycan Demokratik Respublikası Hərbi Nazirliyinin Baş Qərargahı tərkibində ilk xüsusi xidmət orqanı olan Kəşfiyyat və Əks-kəşfiyyat bölməsinin yaradıldığı gün 28 mart Azərbaycan Respublikasının milli təhlükəsizlik orqanları əməkdaşlarının peşə bayramı günü elan edilməsi ilə bağlı Sərəncam imzalandı.

27 iyun 1997-ci ildə Milli təhlüksizlik orqanları əməkdaşlarının peşə bayramı Gününün təsis edilməsinə həsr olunmuş mərasim və təntənəli yığıncaqda H.Əliyev qeyd edir ki, 1953-cü ildən sonra bu orqanlarda həm kəşfiyyat, həm əkskəşfiyyat sahəsində bütün başqa sahələrdə çox gözəl azərbaycanlı kadrlar yetişmişdi, inkişaf etmişdi, bu orqanlar Azərbaycanın tale yüklü məsələlərində fəallıq göstərirdi.

Azərbaycan türkünün milli dəyərləri, milli-mənəvi dəyərlərinin kökü çox zəngin, çox qədimdir. Türkün Tanrıçılıq inancını Azərbaycan yaşamışdır.

Tarixən avropalılar, xristianlar, yəhudilər, buddistlər Tanrıçılıqla bağlı fikirləri mənimsəyərək öz adlarına çıxmış, yaxud məhv etmiş və ya ələ salmağa cəhd ediblər.

Tanrıçılıq əsasən Azərbaycanda, Altayda, Şumer Vilayətlərində geniş vüsət alıb. Türklərin tarixində Şamançılığı, Atəşpərəstliyi müəyyən ərazilərə büddıstliyi daha yüksək səviyyədə inkişaf etdiriblər. Altay, Ural, Ğanrı-Tao, Şumer türkləri Qafqaz bölgələrində daha çox mərkəzləşib. Göy Tanrı, Uca-Tanrı, Əbədi-əzəli Tanrı deyib mənəvi qida alıblar. Azərbaycanın torpaqlarında Atəşpərəstlik, odun, atəşin müqəddəsliyinə etiqaddır, inamdır, inancdır, bu isə elmi-tarixi araşdırmalara görə Zəngəzurda yaranıb. Zərdüştlük adlanan bu din öz adını Peyğəmbəri Zərdüştün adından alıb. Zərdüştlüyün ana kitabı, ali dini kitabı olan "Avesta"dır.

Anketil Deperran - Kral kitabxanasında işləyərkən Hindistandan buraya göndərilmiş bu kitabı fransızcaya tərcümə edib. O, Parisə qaydışı zamanı 180 Şərq əlyazması gətirir ki, onların içərisində Firdovsinin "Şahnaməsi", Nizaminin "Xəmsə"si də olub. Nə üçün bizim tarixçilərimiz, yazarlarımız, din xadimləri, ədəbiyyatçılarımız, mədəniyyət və siyasi xadimlərimiz möhtəşəm "Avesta" kimi bir mənbəyə də sahib çıxmamalıdır?!

Araşdırmalar sübut edib ki, "Avesta"nın müəllifi Zərdüştdür. Zərdüşt Pouruşaspin oğludur, yeni eradan əvvəl I-II əsrlər arasında Şimali Azərbaycanda Zəngəzur bölgəsində anadan olub. Zərdüşt miladdan qabaq 588-ci ildə doğulub, 77 il ömür sürüb. Çünki Qafqazda dayanıqlı sülhün bərqərar olmasını əsas tutan Avropa Şurasında, NATO-da verilmiş bəyanatlar, zəfərlə yola saldığımız 2021-ci ildə 44 günlük Vətən müharibəsində Azərbaycan xalqı dünyaya nümayiş etdirdi ki, əsirlər boyu bu millət imperiya siyasəti, təcavüzkar işğala, vandalizmə, terrora, faşizmə "dağıt-parçala, hökmranlıq et" əməlləri ilə heç zaman barışmayıb.

Ulu Öndər necə demişdirsə, onun layiqli davamçısı Azərbaycan Respublikasının möhtərəm Prezidenti Ali Baş Komandan İ.H.Əliyev onu həyata keçirməklə ata vəsiyyətini yerinə yetirməklə dünya hərbi strategiyasında yeni bir yol açaraq, Azərbaycanın bir daha tarixində qalib və tolerant dövlət olduğunu sübut etdi.

Müsəlman aləmində və ideologiyasında heç bir zaman başqasının torpağında, sərvətində, namusunda gözü olmayıb, halal zəhməti, alın təri ilə həmişə ədalət və haqq tələbi ilə çıxış etmişmübarizə aparıb, onun üçün əməli fəaliyyətilə, haqq savaşına qalxıblar.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev deyib: "Azərbaycan xalqı haqlı olaraq fəxr edir ki, bizim xalqımız bu Respublikanı yaradıb. Bu, tarixi hadisədir, xalqımız üçün və dünya miqyasında tarixi hadisədir".

Azərbaycan Vətən müharibəsində qazandığı tarixi Zəfərdən sonra Qarabağ və Şərqi Zəngəzurda böyük layihələr reallaşdırır, quruculuq işləri intensiv olaraq davam etdirilir!

Ümumiyyətlə, Ulu Öndər Heydər Əliyevin hakimiyyətə yeni qaydıışndan sonra təhlükədə olan dövlət müstəqilliyi qorunub saxlanıldı. Respublikamızın dünya ölkələri ilə əlaqələrinin genişləndirilməsi, beynəlxalq layihələrin həayta keçirilməsi Azərbaycana böyük nüfuz qazandırdı.

Ümummilli Lider Heydər Əliyevin dövlətçilik ənənələrini uğurla davam etdirən Ali Baş Komandan, Respublikanın Prezidenti İ.Əliyevin Dəmir yumruğu ətrafında sıx birləşən xalqımız, bundan sonra da yeni-yeni uğurlara imza atacaqdır!

**Yusif Cəfərov,**
**Gədəbəy Peşə Liseyinin müəllimi,**
**Dövlət müşaviri**

# Tarix Muzeyinə yeni eksponatlar hədiyyə olundu

## Ədalət Tahirzadə və Mirmahmud Mirəlioğlu Tarix Muzeyini ziyarət edib









**Tarixçi-alim, professor Ədalət Tahirzadə və Klassik Xalq Cəbhəsi Partiyasının sədri Mirmahmud Mirəlioğlu Milli Azərbaycan Tarixi Muzeyini ziyarət ediblər. Bu barədə Milli Azərbaycan Tarixi Muzeyin elmi işlər üzrə direktor müavini, tarix elmləri doktoru Fərhad Cabbarov məlumat verib. Fərhad Cabbarov bildirib ki, hər iki ziyarətçi Muzeyə dəyərli eksponatlar hədiyyə ediblər:**

"Ədalət bəy mərhum Prezident Əbülfəz Elçibəyin öz əli ilə yazdığı tərcümeyihalını muzeyə ərməğan etdi. Mirmahmud bəy isə Gültəkin ananın toxuduğu və 17 noyabr 1988-ci ildə Azadlıq meydanında ilk dəfə qaldırılan üçrəngli bayrağı, həmçinin Əbülfəz Elçibəyin xarici pasportunu hədiyyə etdi. Hər üç materialın unikal tarixi əhəmiyyəti, dəyəri var. Bizə etimad göstərdiklərinə, görüş zamanı ünvanımıza deyilən xeyli xoş sözlərə görə hər iki ziyalımıza təşəkkür edirik. Tariximizə və tarixi şəxsiyyətlərimizə daim hörmətlə!".

**İsmayıl**

# "Hələlik Allahın ümidinə yaşayıram"

## Əlisa Nicat AYB-nin məlumatını təkzib etdi



**Maddi imkanının aşağı olması ilə gündəmə gələn, çox sayda əsər müəllifi yazıçı-filosof Əlisa Nicata artıq Prezident təqaüdü verilir.**

**Bunu "Cebhe.info"nun sorğusuna cavab olaraq Azərbaycan Yazıçılar Birliyinin Mətbuat xidmətinin rəhbəri Xəyal Rza deyib.**

"Şərq" Əlisa Nicatın özü ilə əlaqə saxlayıb təbriklərimizi çatdırmaq, həm də vəziyyəti ilə bağlı məlumat almaq istədik. Lakin yazıçı hələ də durumunda bir dəyişiklik olmadığını, təqaüd verilməsi ilə bağlı informasiyanın həqiqəti əks etdirmədiyini dedi: "Hələ heç nə verməyiblər. Yazıçılar Birliyindən demişdilər ki, guya, bir illik 300 manat verəcəklər. Heç o da verilməyib. Kənardan elə bilirlər məsələ həll edilib, ancaq belə deyil və heç bir pul yoxdur. Hələlik Allahın ümidinə yaşayıram".

Xatırladaq ki, qışda Əlisa Nicat tədbirlərin birində evinin soyuq olduğunu, mənzili isitmək üçün qaz pulunu çatdıra bilmədiyini demişdi. Bundan sonra yazıçının üzvü olduğu Azərbaycan Yazıçılar Birliyindən təqaüd almaması qabardılıb və filosofa kömək üçün yardım kampaniyasına başlanılıb.

**Nihat Müzəffər**

# 44 kilometrlik məsafədə heç bir iş görülməyib

## İrəvan dəmiryolunun bərpası üçün öz maliyyəsini xərcləməyəcək, borc istəyəcək



**Rusiyada səfərdə olan Ermənistanın Baş naziri Nikol Paşinyan rusiyalı həmkarı Mixail Mişustinlə görüşüb. Görüş Soçidə baş tutub. Paşinyan deyib ki, Moskvada keçirilən nəqliyyat kommunikasiyalarının açılması üzrə üçtərəfli komissiyanın iclasında nəzərəçarpacaq irəliləyiş əldə olunub:**

"Mən bir daha Ermənistanın bu nəqliyyat kommunikasiyalarının keçdiyi ölkələrin suverenliyi və yurisdiksiyası prinsipləri çərçivəsində regional iqtisadi və nəqliyyat kommunikasiyalarını açmağa hazır olduğunu bildirmək istəyirəm. Bu, üçtərəfli bəyanatın 9-cu müddəasında göstərilən kommunikasiyalara aiddir. Ümid edirəm ki, biz konkret həll yolları tapa biləcəyik". Onun sözlərinə görə, Ermənistan tərəfi konkret təkliflər verib və o, onların qəbul ediləcəyinə ümid edir: "Prinsipcə, bu bizim təkliflərimiz deyil, bunlar son iki il ərzində işlədiyimiz kompromis həllərdir". Xatırladaq ki, Paşinyan Avrasiya İqtisadi İttifaqının Hökumətlərarası Şurasının, eləcə də MDB ölkələrinin liderlərinin Şurasının iclaslarında iştirak etmək üçün bu gün Rusiyaya səfər edib. Onun Rusiyaya səfəri iyunun 9-na qədər davam edəcək.

**"Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri Elxan Şahinoğlu Paşinyan hökumətinin son iki il ərzində işləyib hazırladığı təkliflərin kompromislərdən ibarət olduğunu vurğulayıb:** "Yenə ortada çox söz, çox vəd var, real irəliləyiş isə nəzərə çarpmır. Məsələn, Azərbaycan Ermənistan sərhədinə qədər dəmiryol tikintisini yekunlaşdırmaq üzrədir. Ermənistan isə ərazisindəki 44 kilometrlik məsafədə heç bir iş görməyib. Ermənistan rəsmiləri bunun zaman alacağını vurğulayıblar. Yəni yaxın günlərdə hər hansı sənəd imzalansa belə, bu dəhlizin qısa müddətdə açılacağı anlamına gəlmir. Digər tərəfdən, İrəvan dəmiryolunun bərpası üçün öz maliyyəsini xərcləməyəcək, borc istəyəcək. Bu da vaxt itkisinə səbəb olacaq".

**İsmayıl**

# Deputatlar qiymət artımından gileyləndi

## "Heç olmasa, ərzaq və dərmanla əlaqədar əhalinin tələbatını ödəməliyik"



**Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin dünənki iclasında çıxış edən deputatlar qiymət artımından və inflyasiyanın yüksəlməsindən gileyləniblər. Millət vəkili Vahid Əhmədov deyib ki, bizdə əsasən idxal inflyasiyasıdır:**

"İdxaldan azad olunmaq üçün hansı işlər görülür? Bir neçə dəfə demişəm ki, idxalın strukturu üzərində işləməliyik. Azərbaycanda hansı məhsulları istehsal etmək mümkündürsə, 3-5 il müddətində istehsal edək. İnflyasiyanın 10,4 faiz olacağı proqnozlaşdırılır. Amma inanmıram ki, inflyasiyanı saxlaya bilək. Gedən proseslər onu göstərir ki, inflyasiya yüksək olacaq. Heç olmasa, ərzaq və dərmanla əlaqədar əhalinin tələbatını ödəməliyik. Bu iki əsas səbəbi aradan qaldıraq ki, insanlar əziyyət çəkməsin. Bu iki məhsulu insan ala bilirsə, müəyyən qədər problemlərdən azad oluruq. Əgər bunun öhdəsindən gələ bilmirsə, problemlər kifayət qədər böyüyür".

**Millət vəkili Əli Məsimli də bildirib ki, inflyasiya yuvarlaq götürsək, 14 faiz, ərzaq üzərində 20 faiz ətrafında olub:** "Müəyyən dərəcədə onun aşağı düşməsi proqnozlaşdırılır. Amma hesab edirəm ki, bu, proqnoz deyil, arzudur". Onun sözlərinə görə, İqtisadiyyat Nazirliyinin proqnozlarında inflyasiya 10,4, Mərkəzi Bankın proqnozlarında isə 8,3 faizdir: "Srağagün Mərkəzi Banka sual verdim ki, bununla bağlı rıçaqlarınız varmı? Əgər beynəlxalq praktikada tətbiq olunan uçot dərəcəsini rıçaq kimi istifadə etməkdən söhbət gedirsə, açıq deyək ki, Azərbaycan şəraitində uçot dərəcəsi işləmir. Sərt monetar siyasətə keçəcəyiksə, bu, ÜDM artımını 1,8 faizdən də aşağı salacaq və ciddi əlavə problemlər yaradacaq. Bu barədə düşünmək lazımdır ki, Mərkəzi Bankın sadaladığım rıçaqları işləmirsə, onların nəzərdə tutulan qaydada tətbiq edilməsi xeyirdən çox, ziyan verəcək. Azərbaycanda inflyasiya heç də monetar amillərlə bağlı deyil. Bu nöqteyi-nəzərdən 2023-cü ildə əməkhaqqının 10 faiz ətrafında artacağı proqnozundan belə çıxır ki, cari ildə əhalinin real gəlirlərinin artırılması istiqamətində heç nə olmayacaq. Əməkhaqlarının artırılması inflyasiya artımını kompensasiya etməkdən o yana getmir. Bu istiqamətdə İqtisadi Şurada xüsusi bir iclasın keçirilməsi, həm proqnozlara baxılması, həm də reallaşdırılması istiqamətində yeni doktrinanın ortaya qoyulması vacibdir".

**İsmayıl**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Elmi-kütləvi, mədəni-maarif, təhsil proqramlarının hazırlanması**



# Peşə təhsilinin inkişafı zamanın reallığıdır

## Müasir tələblərə cavab verəcək kadrlar yetişəcək

**İşinin ustası olanlara - sənətkarlara hər zaman ehtiyac var. Müstəqilliyimizin bərpasının ilk illərində təəssüf ki, bir çox sahələrdə olduğu kimi, peşə təhsilində də durğunluq yaşandı. Mövcud olan peşə məktəblərinin fəaliyyəti zəiflədi. Sıradan çıxan, bağlanan peşə məktəbləri də oldu. Bu isə cəmiyyətdə müxtəlif sahələr üzrə usta, mütəxəssis çatışmazlığı yaratdı.**

Sirr deyil ki, buraxılış sinfini bitirənlərin əksəriyyəti ali məktəbə qəbul olunmaq istəyir. Arzular reallaşmayanda isə növbəti ili gözləyir, illər keçdikcə nə ali məktəbə daxil ola bilir, nə də bir sənət sahibi olurlar. Belə vəziyyətdə peşə təhsili gənclərin köməyinə gələ bilər. Amma gec verilən qərarlar gənclərin həyatda öz yerlərini tapa bilməsinə mane olur. Bu baxımdan icbari təhsilin 9 illik mərhələsini başa vurduqdan bilik səviyyələrini, imkanlarını hesablayıb peşə təhsilinə yönələnlər doğru addım atanlardır. Açıq deməliyik ki, hazırkı peşə təhsili müəssisələri sovet təhsil sistemindəki peşə məktəbərindən əsaslı şəkildə və müsbət mənada fərqlənir. O qədər müasir, zamanın, cəmiyyətin tələblərinə uyğun peşələr var ki, onlara yiyələnlər həyatda heç vaxt uduzmayacaq. Bu gün peşə təhsili alanlara tələbat ali təhsilli mütəxəssisə tələbatdan dəfələrlə çoxdur.

Peşə Təhsili üzrə Dövlət Agentliyinin direktor müavini, direktor vəzifələrini icra edən Ceyhun Kərəmovun dünən verdiyi açıqlamalarda məhz bu məsələlərə toxunulub.

C.Kərəmov bildirib ki, bu gün əmək bazarında texniki peşə sahəsində bacarıqları olan şəxslərə ehtiyac var. O, ölkədə peşə təhsilinin inkişafı ilə bağlı konkret strategiyanın olduğunu söyləyib. Peşə təhsili sahəsində ”Böyük Qayıdış” proqramı ilə bağlı hədəflərin müəyyən edildiyini bildirən C.Kərəmov deyib ki, bu istiqamətdə müvafiq işlər davam etdirilir. Direktor müavini son beş ilin statistikasına əsasən qeyd edib ki, 2018-ci ildə peşə təhsili müəssisələrinə tələbə qəbulu 13 400 idisə, hazırda bu rəqəm 19 mindən artıqdır. Dövlət Agentliyinin rəhbəri 2026-cı ilə qədər qarşıya qoyulan hədəfin peşə təhsili üzrə tələbə sayının 28 minə çatdırılması olduğunu vurğulayıb. O, hazırda peşə sahəsi üzrə təhsil alanların sayının 25 min olduğunu qeyd edib.

Qarabağ iqtisadi rayonunda 8 peşə təhsili müəssisəsi tikilib istifadəyə veriləcək. Artıq Füzulidə peşə məktəbinin bünövrəsi qoyulub. Həmin peşə məktəbinin texniki detalları hazırlanıb və yaxın vaxtlarda tikintisinə başlanılacaq. Peşə məktəbinin 2025-ci ildə təhvil veriləcəyi gözlənilir. Qarabağ və digər ərazilərdə fəaliyyət göstərəcək peşə məktəblərində gələn ildən etibarən alternativ enerji ilə işləyən texnologiyaların inkişafı üzrə texniklər hazırlanacaq. Növbəti illərdə Qarabağda açılması planlaşdırılan 8 peşə təhsili müəssisəsində 5000 nəfərin qısamüddətli, 1000 nəfərin isə ixtisasartırma təlimlərinə cəlb olunması nəzərdə tutulur və mütəmadi şəkildə əmək bazarına sürətli keçid imkanı verən qısamüddətli təlimlər keçirilir. Bu il Cəlilabad və Lənkəranda da yeni peşə təhsili mərkəzləri açılacaq. C.Kərəmovun sözlərinə görə, həmin mərkəzdə kənd təsərrüfatı, meyvə sənayesi sahələri tədris ediləcək: ”Mərkəzdə ilk dəfə heyvandarlıq ixtisası da tədris olunacaq. Bu məqsədlə mərkəzin ərazisinin yaxınlığında müasir ferma da tikilib. Tələbələr orada heyvanların saxlanılması, onlara göstərilən xidmətlərlə yaxından tanış ola biləcəklər. Mərkəzdə həmçinin əkinçilik və bitkiçilik ixtisasları da tədris olunacağından yaxınlıqda əkin sahəsi də var”. C.Kərəmov bildirib ki, ilin sonuna Lənkəranda da peşə təhsil mərkəzi açılacaq: ”Burada həm kənd təsərrüfatı, həm də turizm və hotelçilik sahələri tədris olunacaq. Mərkəzin özünün hoteli olacaq. Qubada peşə təhsili mərkəzinin inşası isə 2025-ci ilin sonuna planlaşdırılır. Qaxda peşə mərkəzinin yenidən qurulması, Tovuzda və digər rayonlarda da belə mərkəzlərin yaradılması nəzərdə tutulur”.

Peşə təhsili sahəsində tədris vəsaitləri və proqramlarının hazırlanması istiqamətində işlər görülür. Yüksək texniki peşə sahəsi üzrə tədris proqramına 6 yeni ixtisasın əlavə edilməsi planlaşdırılır. Bura kompüter şəbəkələri və şəbəkə inzibatçılığı, kənd təsərrüfatı və inşaat texnikası (maşınlarının) istismarı, texniki yeni ixtisaslardan (1 illik) isə rabitə quraşdırıcısı-kabelçi, kombi və kondisioner ustası, planer və mühərrik üzrə mexanik, un üyütmə istehsalının aparatçısı üzrə ixtisaslar aiddir.

C.Kərəmov bildirib ki, hazırda Azərbaycan-Türkiyə peşə təhsili müəssisələrinin nümunəvi nizamnaməsi hazırlanır. C.Kərəmov deyib ki, bu sənəd yaradılacaq 2 peşə təhsili müəssisəsində tədrisin, maliyyə və idarəetmənin təşkili ilə bağlı məqamları tənzimləyəcək. Agentlik rəsmisi bildirib ki, sənəd tamamlandıqdan sonra aidiyyəti üzrə göndəriləcək: ”Hökumətdə daxili razılaşma prosedurundan keçdikdən sonra tərəflər arasında imzalanma olacaq. Bununla da iki ölkə arasında birgə təhsil müəssisələrinin yaradılması üçün hüquqi baza tam olaraq formalaşmış olacaq. Hüquqi baza formalaşdıqdan sonra maddi-texniki bazanın formalaşması, tələbə qəbulu və tədrisin təşkili məsələləri öz həllini tapacaq. Paralel olaraq tətbiqi nəzərdə tutulan qida, işçilərin hazırlanması, hotelçilik və səyahət xidmətləri və informasiya texnologiyaları ixtisas qrupu üzrə təhsil proqramlarının qarşılıqlı razılaşdırılması işləri icra edilir. Tədris planları hazırlanır, proqramın məzmun hissəsinin tamamlanması üzrə işlər aparılır”.

Peşə təhsili müəssisələrində çalışan pedaqoji heyətin sosial rifahının yaxşılaşdırılması istiqamətində təkliflər paketi hazırlanır. C.Kərəmov qeyd dib ki, təkliflər sənədi yekunlaşdıqdan sonra aidiyyəti üzrə göndəriləcək. Hazırda təxminən 20-yə yaxın peşə təhsili müəssisəsində direktor, 30-a yaxın müəssisədə isə direktor müavini vəzifəsi vakantdır. Həmin yerlərin yaxın vaxtlarda vakansiyaya çıxarılması nəzərdə tutulur.

**Görünən budur ki, peşə təhsili sahəsində irimiqyaslı dəyişikliklər, yeniliklər olacaq. Peşə təhsilinin inkişafına çox sevindiyini deyən professor Rafiq İsmayılov ”Şərq”ə açıqlamasında qeyd etdi ki, tədris proqramlarına edilən yeniliklər, ixtisasların artırılması müsbətdir:**

- Peşə təhsilinə yönələnlərin sayındakı artım da sevindiricidir. Gənclərin peşələrə yiyələnməyə can atması müsbət haldır. Bu o deməkdir ki, ailələr də, gənclər özləri də nəhayət anlayırlar ki, ali təhsil alıb işsiz qalmaq ehtimalı ilə yaşamaqdansa, peşəyə, sənətə yiyələnib lazımlı mütəxəssis, sənətkar olmaq daha yaxşıdır. Məni qane edən həm də budur ki, işğaldan azad edilmiş ərazilərimizdə peşə məktəblərinin sayı artırılır. Məsələn, məlumatda bildirilir ki, Qarabağ və digər ərazilərdə fəaliyyət göstərəcək peşə məktəblərində alternativ enerji ilə işləyən texnologiyaların inkişafı üzrə texniklər hazırlanacaq. Bu, müasir tələblərə cavab verəcək kadrlarımızın olması deməkdir. Bilirik ki, Qarabağda alternativ enerji ilə işləyəcək sahələr çox olacaq. Deməli, onları işlədə biləcək, bu sahə üzrə ixtisaslaşmış öz işçilərimiz də olacaq. Bu, sevindircidir. Regionlarda peşə təhsili mərkəzlərinin olması da vacibdir. Hər regionun xüsusiyyəti, hansı sahələrin daha çox inkişaf etdiyi nəzərə alınaraq peşə tədrisi təşkil olunmalıdır. Cəlilabadda kənd təsərrüfatı, heyvandarlıq inkişaf etdirilirsə, bu sahələr üzrə, həm də müasir texnologiyalar öyrədilməklə, Lənkəran, Lerik bölgəsində meyvəçilik, bostançılıq, hotelçilik, turizm sahələri üzrə peşəkar kadrların hazırlanmasına diqqət yetirilməlidir. Yaxşı haldır ki, qardaş Türkiyənin bu sahələrdəki təcrübəsi də öyrənilir. Qida sənayesi, mehmanxana işçisi, hotelçilik və səyahət xidmətləri və informasiya texnologiyaları ixtisas qrupu üzrə təhsil proqramlarının qarşılıqlı razılaşdırılması ümidvericidir. Müasir tələblərə cavab verəcək peşəkarlarımız olmalıdır. Ali təhsillə iş bitmir. Peşə təhsilinin öyrədə biləcəyi çox şeylər var. Gərək bundan yararlanmağı, istifadə etməyi bacaraq.

**Məlahət Rzayeva**

**Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub**

# Erməni vandalizminin daha bir sübutu

## Azərbaycanlıların qəbir daşları ermənilər yaşayan evdə aşkarlanıb




**Xocavənddə ermənilərin yaşadığı evdə azərbaycanlılara aid qəbiristanlıqlardan sökülən qəbir daşları aşkarlanıb.**

APA-nın Qarabağ bürosu xəbər verir ki, Xocavənd rayonunun Azıx kəndində çəkiliş aparan zaman 20 azərbaycanlıya məxsus məzar daşı tapılıb. Mərmər daşlar erməni ailənin yaşadığı evin qarajında aşkarlanıb. Məzar daşlarının üzərində ad-soyad, doğum və ölüm tarixləri qeyd olunub.

**Buradakı əsas məqsədin daşları satıb, pul qazanmaq olduğunu deyən millət vəkili Elman Məmmədov ”Şərq”ə vurğulayıb ki, bu hadisə erməni vandalizminin daha bir sübutudur:** ”Hesab edirəm ki, tapılan məzar daşları bu gün də ermənilərə görə dəridən-qabıqdan çıxan və onlara xidmət edən Beynəlxalq Qırmızı Xaç Komitəsinin önünə sərilməlidir. Yəni onlara göstərmək lazımdır ki, məzlum adlandırdıqları ermənilər hansı vəhşiliklər törədib. Ümumiyyətlə, işğal dövründə zəbt edilmiş bütün ərazilərdə olan qəbiristanlıqlarda mərmər daşlar ermənilər tərəfindən dağıdılıb və aparılıb. Təbii ki, bu təkcə Ermənistana daşınmadı. Onlar həmin daşları yonaraq cənub qonşumuza göndərdilər. Yəni talançılıqda İran ermənilərdən daha çox iştirak edib”.

**E.Məmmədovun sözlərinə görə, işğal altındakı torpaqlarda olan bütün qəbirlər dağıdılıb və ya talan edilib:** ”Onlar vaxtilə dəfn olunmuş insanların ağızlarında olan qızıl dişləri tapmaq üçün bir dənə də salamat qəbir saxlamayıb.

> Elman Məmmədov: “Onlar vaxtilə dəfn olunmuş insanların ağızlarında olan qızıl dişləri tapmaq üçün bir dənə də salamat qəbir saxlamayıb”

Ağdamda yerləşən Şəhidlər xiyabanı bunun ən bariz nümunəsidir. Mən hesab edirəm ki, işğaldan azad olunmuş ərazilərimizdə olan dağıntıları beynəlxalq aləmə yaymaq üçün tədbirlər görülməlidir. Düzdür, dövlətimiz bu barədə addımlar atır. Ancaq kifayətlənmək olmaz. Bu hadisələr geniş şəkildə yayılmalıdır ki, dünya ermənilərin həqiqətdə nə qədər vəhşi toplum olduğunu başa düşsün. Digər tərəfdənÖ ermənilərin müdafiəsinə qalxanlar, onlardan da betərdilər. Çünki yalnız vəhşi vəhşini müdafiə edər”.

**Nihat**



# Özəl sektorun dəstəyi olmalıdır

## Dövlət bu qədər binanı söküb yerində yeni binalar tikə bilməz

**Müxtəlif dövlət qurumlarından ibarət yaradılmış komissiya Azərbaycanda qəzalı binalarla bağlı iş aparır.**

**Bunu Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizov deyib.**

O bildirib ki, komissiya qəzalı binalarla bağlı qiymətləndirmə, inventarizasiya aparır. ”Komissiya qəzalı binalarla bağlı rəylərini hazırlayıb Nazirlər Kabinetinə tədqim edəcək. Komissiyaya Bakı Şəhər İcra Hakimiyyətinin, Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin, Fövqəladə Hallar Nazirliyinin və digər müvafiq qurumların nümayəndələri daxildir”, - deyə o qeyd edib.

**Daşınmaz əmlak eksperti Elnur Fərzəliyev isə ”Şərq”ə açıqlamasında deyib ki, Bakı şəhərində olan bütün qəzalı, xüsusən də istismar müddətini başa vuran binalarla bağlı monitorinq aparılmalıdır:** ”Yerli icra hakimiyyətlərinin müvafiq şöbələri məlumatlandırma xarakterli monitorinq keçirib binalara baxmalı, daha sonra Fövqəladə Hallar Nazirliyinin Tikintiyə nəzarət şöbəsi onun qəzalı olub-olmadığını yoxlamalıdır. Qəzalı binalar mümkün qədər qısa vaxtda sökülməli və yaxud söküləcəyi günə qədər həmin binalarda təmir-bərpa işləri aparılmalıdır. Qısa müddətdə bütün qəzalı binaların sökülməsi və yenisi ilə əvəzlənməsi isə mümkün deyil. Belə binalar dövlətin hansısa qurumu tərəfindən deyil, əsasən bina tikən şirkətlər tərəfindən sökülür”.

**- Səhv etmirəmsə, tikinti şirkətləri bir o qədər maraqlı görünmür...**

- Çünki söküntü zamanı şirkətlərlə vətəndaşlar arasında konflikt yaranır, nəticədə isə proses ləngiyir və şirkət binanı qısa zamanda tikib satdığı şəxslərə təhvil verə bilmir. Tikinti şirkətləri qəzalı binaları söküb bina tikəndə əsasən alıcı qüvvəsinə, həyətyanı sahənin böyüklüyünə və binada sakin sayının azlığını əsas götürürlər. Bəzi hallarda sakinlər tərəfindən də tikinti şirkətlərinə qarşı müəyyən problemlər yaradılır. Lakin çox vaxt biz görürük ki, sakinlər şirkətdən daha böyük mənzil tələb edirlər. Bu da uzunmüddətli qalmaqala və tikintinin gecikməsinə gətirib çıxarır. Belədə də tikintinin sökülməsinin yubanması baş verir. Binanı sökən və həmin binada mənzili olan şəxslərlə bağlı qanun layihəsi hazırlanmalıdır. Hansısa bir dövlət qurumu vətəndaşlara zəmanət verməlidir ki, bina filan tarixdə sökülüb, filan tarixdə təhvil veriləcək.

> “Ona görə də ən yaxşısı tikinti şirkətləri üçün müəyyən güzəştlər tətbiq olunmalıdır ki, işlər yubanmasın”

**- Qəzalı binaların sökülməsini dövlət öz üzərinə götürə bilməz?**

- Özəl sektorun dəstəyi olmadan dövlət bu qədər binanı söküb yerində yeni binalar tikə bilməz. Ona görə də ən yaxşısı tikinti şirkətləri üçün müəyyən güzəştlər tətbiq olunmalıdır ki, işlər yubanmasın. Belə ki, həmin şirkətlərə vergi güzəştləri edilməli, ipoteka kreditləri ayrılmalıdır. Söküntü səbəbindən paytaxtda köhnə binalardakı mənzillərin qiyməti bahalaşıb. Bu, hələ də davam etməkdədir. Həmin binaları sökən şirkət mənzil sahibinə daha böyük və təmirli mənzil verir.

**Şəymən**

# 700 bal toplayan abituriyent olmadı

## Qəbul imtahanlarının nəticələri hər il aşağı düşür

**Dövlət İmtahan Mərkəzi (DİM) tərəfindən 20 və 21 may tarixlərində keçirilən II və III ixtisas qrupu üzrə ali məktəblərə qəbul imtahanlarının nəticələri açıqlanıb.**

**20 və 21 may tarixli qəbul imtahanlarından ən yüksək nəticə göstərən abituriyent naxçıvanlı məzun Mikayıl Cəfərlidir. Naxçıvan MR Şərur rayon Kürçülü kənd tam orta məktəbinin məzunu imtahanda II ixtisas qrupu üzrə 394.0 bal toplayıb.**

Qeyd edək ki, Mikayıl 12 mart tarixində keçirilən buraxılış imtahanından da 297 bal toplayaraq Naxçıvan Muxtar Respublikası üzrə ən yüksək nəticəyə nail olmuşdu. O, hər iki mərhələnin cəminə görə II ixtisas qrupu üzrə ən yüksək nəticə - 690.7 bal toplayıb.

Mikayıl Cəfərli gələcək hədəfləri və əldə etdiyi uğurlarla bağlı fikirlərini "AzEdu.az"la bölüşüb. "Mən 2007-ci il aprelin 18-də Şərur rayonu Kürçülü kəndində anadan olmuşam. Təhsil illərində müəyyən uğurlara imza atmışam. Belə ki, 9-cu sinif buraxılış imtahanından 297 bal toplayaraq Naxçıvan Muxtar Respublikası üzrə ən yüksək nəticəni göstərmişəm. 2021-ci ildə Naxçıvan Muxtar Respublikası fənn olimpiadalarında tarix üzrə 2-ci yerin qalibi olmuşam, 2022-ci ildə keçirilən fənn olimpiadalarının final turunda iştirak edərək tarixdən gümüş medala layiq görülmüşəm. Elə həmin ildə keçirilən digər olimpiadada coğrafiya fənni üzrə özümü sınayıb 1-ci yerin qalibi olmuşam. Digər bir uğurum isə 11-ci sinif buraxılış imtahanından 297 bal toplayaraq Naxçıvan Muxtar Respublikası üzrə ən yüksək nəticə əldə etməyimdir. İmtahanda riyaziyyat və ingilis dilindən 100 bal, Azərbaycan dilindən isə 97 bal topladım".

Abituriyent, məqsədinin xaricdə təhsil almaq olduğunu vurğulayıb: "Azərbaycanda təhsilimə davam etmək qərarına gəlsəm, seçimim ya Azərbaycan Dövlət İqtisad Universiteti, ya da Bakı Ali Neft Məktəbində Biznesin idarə edilməsi ixtisası olar. Təhsilimi xaricdə davam etmək istəyirəm, bunun üçün İELTS və CELT imtahanlarında iştirak etmişəm. Bu imtahanlardan yüksək nəticə göstərərək Amerika Birləşmiş Ştatlarının 5 universitetindən qəbul dəvəti almışam. Lakin maliyyə problemlərim var. Eyni zamanda Türkiyə universitetlərinə də müraciət etmişəm. Əgər xarici dövlətdə oxuma şansım olsa, Azərbaycandakı təhsilimdən imtina etməyə hazıram".

M.Cəfərli öz tövsiyələrini yaşıdları ilə bölüşüb: "Yaşıdlarıma tövsiyə edirəm ki, təhsil aldıqları müddətdə dünyagörüşlərini artıraraq, təhsili daha dərindən mənimsəməyə çalışsınlar. Çünki Dövlət İmtahan Mərkəzi tərəfindən tərtib edilən suallarda təkcə savad deyil, dünyagörüş də yoxlanır".

Abituriyent sonda imtahan vermiş bütün şagirdlərə uğurlar arzu edib: "Mənimlə bərabər imtahan verən bütün abituriyentlərə uğur arzu edirəm. Ümid edirəm ki, yüksək nəticə göstərərək istədikləri ali məktəblərə qəbul olunarlar".



### "Yüksək hazırlıqlı deyil, orta və aşağı hazırlıqlı abituriyentləri daha çox ali məktəb müəssisələrinə qəbul edirik"

III ixtisas qrupu üzrə ən yüksək nəticə 392.5 bal, III ixtisas qrupu üzrə yüksək nəticə 679.3 baldır.

Təhsil eksperti Kamran Əsədov isə son bir neçə ilin imtahan nəticələrinə istinadən nəticələrin aşağı düşdüyünü deyib. Onun sözlərinə görə, tədrisin təşkilində yol verilən boşluqlar qəbul imtahanlarının nəticələrinə təsir edir: "Əvvəlki illərdə yüksək nəticələri olan liseylərin də nəticələri ürəkaçan deyil". Nəticələri şərh edən ekspert deyib ki, II və III qruplarının imtahan nəticələri biri-birindən fərqlidir. Biri humanitar, biri texniki sahəyə aiddir. II ixtisas qrupu həmişə özünün yüksək olmayan nəticələri ilə diqqəti cəlb edib. II ixtisas qrupu üzrə coğrafiya, riyaziyyat fənninin test tapşırıqları imtahan nəticələrinə müəyyən qədər təsir edib. Onu da deyim ki, II ixtisas qrupunda tarixə aid olan ixtisas yoxdursa, tarix fənnini imtahandan çıxartmalıyıq. Bu il ali məktəb müəssisələrinə qəbul plan yerləri kəskin şəkildə artacaq. Deməli, yüksək hazırlıqlı deyil, orta və aşağı hazırlıqlı abituriyentləri daha çox ali məktəb müəssisələrinə qəbul edirik. Yekunda əmək bazarına mütəxəssis kimi deyil, sadəcə, diplomlu mütəxəssis kimi gəlirlər".

**II və III ixtisas qrupu üzrə ali məktəblərə qəbul imtahanlarının nəticələrini "Şərq"ə şərh edən təhsil eksperti Elçin Əfəndi isə ötən illə müqayisədə elə bir kəskin fərq olmadığını, lakin bəzi göstəricilərdə builki nəticələrin daha yaxşı olduğunu deyib:** "Lakin hər iki qrup üzrə açıqlanan nəticələrdə maksimum bal (700) toplayan abituriyent olmadı. Ümumiyyətlə, 2019-cu ildən üzü bəri yüksək nəticə göstərən abituriyentlərin sayında ciddi azalma müşahidə edilir. Təbii ki, 700 bal yığan abituriyent yoxdur deyə, ümumi imtahan göstəricilərini aşağı qiymətləndirmək də düzgün deyil. Sadəcə, kurikulum əsasında olan imtahan abituriyentlərin maksimal nəticə əldə etməsinə mane olur. Əgər imtahan sualları sadəcə qapalı və ya açıq tipli suallardan ibarət olsaydı, bir neçə abituriyent 700 ballıq göstəriciyə nail olardı. Hesab edirəm ki, plan yerlərində artım olarsa, daha çox abituriyent qəbul olmaq imkanı qazanar".

**Şəymən**

# Qarabağda yaşamağa hazırdır

## Jurnalist Xankəndiyə köçmək istəyir



**"Torpaqlarımız işğaldan azad olunandan sonra ölkə başçısı bildirdi ki, kim Qarabağda yaşamaq istəyirsə, aidiyyəti quruma müraciət etsin. Bəlkə də Azərbaycanda ilk adam idim, bu çağırışı eşidər-eşitməz Xankəndidə yaşamaq istədiyimi çatdırdım".**

*Bunu "Şərq"ə araşdırmaçı jurnalist Sərxan Carçı Xankəndiyə köçmək arzusundan danışarkən deyib. O bildirib ki, Qarabağda yaşamağa hazırdır:* "Çox keçmədi, Prezident Adminstrasiyasından zəng gəldi. Müraciətimlə bağlı suallar verdilər. Ailə üzvlərimlə məsləhətləşdiyimi dedim. Zəng edən əməkdaş niyə məhz Xankəndidə yaşamaq istədiyimi soruşdu. Mən də işğaldan azad olunan ərazilərin birinə, xüsusən də, Şuşaya köçmək niyətimi ifadə etdim. Amma məhz Xankəndidə ermənilərlə qarşı-qarşıya yaşamaq arzum var. Bu, prinsip məsələsidir. Hazırda da eyni fikirdəyəm, həmin sözümün üstündəyəm. Məktubumun qeydə alındığını diqqətə çatdırdılar. İndi də qeydə alınmış məktubuma növbəti reaksiyanın, köçənlərdən biri olmağımla bağlı gələcək zəngin arzusundayam. Lakin prinsip naminə Xankəndi olsa, lap yerinə düşər".

**Sücayət Mehti**

# "Allahın möcüzəsi lazımdır"

## Tağı Əhmədovun yeriməyi artıq mümkün deyil




**"Bakı Metropoliteni" QSC-nin sabiq rəisi Tağı Əhmədov ömürlük yerimə qabiliyyətini itirib.**

Manset.az-ın əldə etdiyi məlumata görə, Tağı Əhmədov ömürlük əlil arabasına məhkum olmaqla yanaşı, onun ürəyində də ciddi problem yaranıb. Hazırda o, Bakıda yerləşən özəl klinikalardan birində intensiv müalicə alır.

Onun həyat yoldaşı Salatın Əhmədova faktı təsdiq edərək, bunları deyib:

"Tağı müəllim hazırda xəstəxanadadır, vəziyyəti ürəkaçan deyil. Müalicə zamanı başqa problemləri də çıxdı. Onun ürəyində də problem yaranıb. İndi Tağını müalicə edəcəklər. Yəqin ürəyi ilə bağlı müalicəsi bir həftəyə yekunlaşar. Həkimlər indi onunla məşğuldurlar. Yeriməyi artıq mümkün deyil. Onun yeriməsi üçün Allahın bir möcüzəsi lazımdır. Heç kim bilmir ki, sabah başına nə gələcək".

**Elanlar**

İsmayılov Mahir Tahir oğluna Azərbaycan Texniki Universitetinin nəzdində Bakı Dövlət Rabitə və Nəqliyyat Kolleci, kompüter şəbəkəsi avadanlığı, təmiri və servis xidməti 512A tərəfindən verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Azərbaycan Respublikası Əmlak Məsələləri Dövlət Komitəsinin yanında Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətinin 1 saylı Bakı Ərazi İdarəsi tərəfindən Goranboy rayonu, Qarqucaq kənd sakini Mehtiyeva Surə Əlisa qızına məxsus torpaq sahəsinin sənədi itdiyi üçün etibarsız sayılır.



# Müalicə vaxtında aparılmalıdır

## Yeni doğulan körpələrdə də qalxanabənzər vəzinin xəstəliklərinə rast gəlinir

**"Orqanizmdə mövcud olan bütün orqan və toxumalarda gedən proseslər qalxanabənzər vəzinin nəzarətindədir". Bunu Səhiyyə Nazirliyinin mütəxəssis-eksperti, uşaq endokrinoloqu Azad Əkbərzadə deyib.**

Onun sözlərinə görə, qalxanabənzər vəzi insan orqanizmində çox əhəmiyyətli hormon ifraz edən vəzilərdən biridir. Elmi ədəbiyyatlarda qalxanabənzər vəziyə tireoid vəzi də deyilir: "Boyunda, qırtlağın önündə yerləşən kiçik bir orqandır. Amma kiçikliyinə baxmayaraq, demək olar ki, orqanizmdə mövcud olan bütün orqan və toxumalarda gedən proseslər onun nəzarətindədir. Yəni maddələr mübadiləsinin sürətindən tutmuş sinir sisteminin inkişafına qədər bir çox proses onun ifraz etdiyi hormonlarla tənzimlənir".

A.Əkbərzadənin fikrincə, böyüklərdə olduğu kimi, uşaqlarda da bu vəzinin xəstəliklərinə rast gəlirik: "Bu xəstəliklər həm vəzinin fəaliyyətinin az olması, həm çox fəaliyyət göstərməsi, həm də düyünləri ilə əlaqədar ola bilir. Müalicələri böyüklərdəki kimi aparılır. Tireoid xəstəlikləri də anadangəlmə, qazanılmış, müvəqqəti və daimi xarakter daşıya bilir. Hətta bəzən yeni doğulan körpələrdə də qalxanabənzər vəzinin xəstəliklərinə rast gəlinir. Xüsusilə qalxanabənzər vəzi hormonlarının çatışmazlığı ilə müşahidə olunan anadangəlmə hipotireoz xəstəliyi çox önəmlidir. Əgər həkim bu xəstəliyi vaxtında müəyyən etməzsə, o zaman uşağın sinir sisteminin inkişafında problemlər baş verə bilər. Amma vaxtında müalicə başlanarsa, o zaman uşaq öz inkişafını normal şəkildə tamamlaya bilər".

Uşaq endokrinoloqunun sözlərinə görə, bütün yaş qruplarında tireoid xəstəliklərinə rast gəlmək olur: "Xüsusilə uşaq və yeniyetmə dövründə daha tez rast gəlinir. Bu dövrdə digər baş verən fizioloji problemlərlə yanaşı, əlamətləri daha dəqiq təyin edərək xəstəlik vaxtında müəyyən edilməli və müalicəyə vaxtında başlanılmalıdır.

Çünki qalxanabənzər vəzinin çatışmazlığı ilə gedən vəziyyətlərdə inkişaf geriliyi, böyümə sürətinin azalması, yorğunluq, halsızlıq, uşaqlarda nevroloji inkişaf gerilikləri, kobud səs, qəbizlik, göbək yırtığı, quru dəri, zəif və cansız saç, saç tökülməsi və digər əlamətlər müşahidə oluna bilir. Belə əlamətlərlə qarşılaşan zaman mütləq Hipotireoz (tireoid hormonların azlığı) xəstəliyi ağla gəlməlidir.

Amma əksinə, vəzinin sürətli işlədiyi hallarda isə (hipertireoz, zəhərli zob) ürək döyünməsinin artması, narahatlıq, əsəbilik, əllərdə titrəmə, nəm və isti parlaq dəri, iştahanın artmasına baxmayaraq çəkiitirmə, ishal, bağırsaqda sorulma problemləri və digər əlamətlərə rast gəlinir".

**Şəymən**

# Zavallı Elvin...

## Çiynini bu qədər ağır yükün altına verməməlidir

**Məzarıma**
**nə başdaşı qoyun,**
**nə heykəl.**
**Bir cüt ayaqqabı qoyun,**
**ayağıyalın**
**geyib getsin...**

Bu sözlər mərhum Xalq şairi Vaqif Səmədoğluna aiddir. Olumla ölümün haqq olduğunu, dünyanın faniliyini, heç nəyin və heç kimin əbədi olmadığını çoxlarından yaxşı dərk edən şair, elə-belə yazmayıb bu misraları.

Mövzuya keçmədən qeyd edək ki, 76 yaşında vəfat edən Xalq şairinin məzarına vəsiyyətinə uyğun olaraq başdaşı qoyulmayıb, qəbirüstü abidə yalnız sinə daşından ibarətdir. Sinə daşında şairin yaradıcılığından bir neçə misra sitat gətirilib və həmin misralara uyğun olaraq məzar üstünə bir cüt ayaqqabı da qoyulub.

İslam dinində də dəfnlə bağlı bütün israflara yox deyilib. Həm ehsanda, həm məzarda. Yəni dinimiz hər cür israfçılığı, dəbdəbəni qadağan edir. Amma ki, kimə deyirsən... Xalq olaraq məzar daşı stereotipini qıra bilmirik. Dəfn, məzarlıq məsələləri xalqımızın təfəkkürü, dünyagörüşü və həm də adət-ənənə ilə bağlı olduğundan rəsmi qurumlara da qərar vermək çətindir.

Şöhrətpərəst insanların məzar daşı "sevgisi" imkansız ailələri çətin duruma salır. Yaşının az olmasına rəğmən el qınağından çəkinən balaca Elvin də atasına məzar daşı qoymaq üçün gecə-gündüz işləyib, balaca canı ilə su satıb.

Bu barədə sosial şəbəkələrdə video yayılıb. Xatırladaq ki, Elvinin görüntülərini yoldan keçən sürücülərdən biri lentə alıb. O, yolda təsadüfən dayanan avtomobil sürücüsündən onu getdiyi yerə qədər aparmasını xahiş edib. Sürücü ondan nə üçün ora getdiyini soruşduqda isə Elvin atasının qəbir daşını hazırlatmaq üçün işləyib pul yığdığını bildirib. Sözügedən görüntülər bir çox sosial platformalarda yayılaraq viral olub. Azyaşlının bu addımı böyük rəğbətlə qarşılanıb.

Amma burada diqqət ediləsi məqam iki balaca uşağın minbir əziyyətlə qazandığı pulun başdaşı üçün yığılmasıdır. Bu pulun onların təhsilinə, səhhətinə deyil, atasının "soyuq" məzar daşına yığılmasıdır. Ən dəhşətlisi isə balaca Elvinin özünü buna məcbur hiss etməsidir. Elvin özünə bu qədər əziyyəti verir ki, "filankəsin oğlu onun üçün özü boyda daş qoydu, bu isə yetimdir", - deyə ona tənə etməsinlər.

Qeyd edək ki, Gədəbəy rayonu, Slavyanka kənd sakinləri 10 yaşlı Elvin Elbrus oğlu Yusibov və qardaşı 13 yaşlı Emin Elbrus oğlu Yusibovun hər birinə ailə başçısını itirməyə görə 120 manat aylıq müavinət verilir. Həmçinin nənələri (qəyyumları) Fatma Bəşir qızı Yusibovaya 327,2 manat yaşa görə pensiya ödənilir.




### Təəssüf ki, bizdən övladlarımıza çox pis miras qalıb

"Yenisabah.az" saytının baş redaktoru Seymur Verdizadə isə "Şərq"ə açıqlamasında bu məsələdə cəmiyyəti qınayıb. Onun sözlərinə görə, təkcə toylarımızı deyil, yaslarımızı da dəbdəbəli şəkildə qeyd etdiyimiz üçün sosial vəziyyəti yaxşı olmayan ailələr ciddi çətinliklərlə üz-üzə qalırlar: "Niyə hamı dünyadan köçən əzizinə qara mərmərdən başdaşı hazırlatmalıdır? Niyə əzizini itirmiş adamın 40 gün qapısına ayaq döyüb onun ailəsini borc-xərcə salmalıyıq?

Bilirsiniz, əgər hamı mərhum qohumları üçün sadə başdaşı düzəltdirsəydi, zavallı Elvin də çiynini bu qədər ağır yükün altına verməzdi. Təəssüf ki, bizdən övladlarımıza çox pis miras qalıb. Altmış il yaşayıb 30 nəfərə xeyir verməyən bəzi adamlar övladlarının toyuna 300-500 qonaq çağırır. Nəticədə nə qədər adam xərcə düşür, balasının boğazından kəsib toya pul yazdırır. Bu məclisləri daha məhdud çevrədə etmək doğru olmazmı? Təkcə şad günümüzdə deyil, bəd günümüzdə də özümüzü kimlərəsə göstərmək istəyirik.

Bu fikri əvvəllər də demişəm, sağlığında atasına bir cüt corab almayan bəzi adamlar valideyni dünyasını dəyişəndə yas süfrəsinə min cür nemət düzür, masaya banan qoyur. Hansı ki rəhmətlik atası sağlığında o bananın dadını bilməyib.

Biz nə qədər ki, bu cür çürük düşüncə ilə yaşayacağıq, balaca elvinlər küçələrdə su satıb atalarına qara mərmərdən başdaşı düzəltmək məcburiyyətində qalacaqlar".

**Şəymən**

**Təsisçi və baş redaktor: Akif Aşırlı**
**Baş redaktorun ı müavini: Yusif Nəzərli**

**Reportyorlar qrupu:**
Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Aygün Tahir, Nihat Müzəffər, Sücayət Mehti

**Texniki heyət:**
Rüfət Dadaşov, İmamcan Əliyev, İlahə İbrahimova, Nailə Cabbarlı, Fazilə Məmmədova

Qəzet "Şərq"in kompyuter mərkəzində yığılır, səhifələnir və "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap olunur

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb.
Lisenziya: 535
www.sherg.az
e-mail: sherq-1996@mail.ru

Ünvan: Mətbuat prospekti, "Azərbaycan" nəşriyyatı.
Telefon: 447-32-41
538-44-50, internet 538-44-15,
İndeks: AZ1073

**Hesab nömrəsi:**
"Muğanbank" ASC baş ofis
Kod: 506162
VÖEN: 1400122681
M/H: AZ41NABZ01350100000000018944
S.W.İ.F.T.: MUGAAZ22
AZM hesab nömrəsi: AZ76MU-GA400603803000225AZM00
VÖEN 1300414651 İndeks: 0330

Tirajı: 1550 Sifariş: 1469





# Düz divara dırmandı

## Jared Leto bu dəfə heyranlarının nəfəsini kəsən hərəkətə imza atıb

**”Oskar” mükafatçısı, ”İsgəndər” filmindəki Hefestion rolu ilə də məşhurlaşmış Jared Leto bu dəfə heyranlarının nəfəsini kəsən hərəkətə imza atıb.**

Berlinə səfər edən məşhur aktyor qaldığı ”Hotel De Rome”nin divarına dırmanıb. Həm də hər hansı təhlükəsizlik tədbiri görülmədən, təhlükəsizlik  kəməri, jiet geyinmədən. Dırmanış sırasında aktyoru xilasedici heyət də müşayiət etməyib. Aktyor bütün təhlükələri gözə alaraq divara dırmanmağa başlayıb. Jared Letonun düz divara dırmanmasının görüntüləndiyi video sosial şəbəkələrdə gündəm olub. Video paylaşıldıqdan sonra milyonlarla baxış qazanıb və bəyənilib. Aktyorun nədən bu hərəkəti etdiyi haqda isə deyilir ki, o, bunu illüziya videolarıyla tanınan tiktok istifadəçisi Younes Zarou üçün edib. Leto tərəfdənsə bu məlumat təsdiqlənməyib. Sosial mediada Jared Leto haqqında ”deyəsən, özünü ”Hörümçək adam” sanır. Bunu etmək üçün nə yeyib, nə içdisə, mən də ondan istəyirəm”, yorumu da gəlib. Qeyd edilir ki, Jared Leto zaman-zaman heyranlarını təəccübləndirməyi sevir. ”Met Gala” gecəsində aktyorun pişik kosrtyumu ilə ”qırmızı xalı”ya çıxması da bu qəbildən idi.

**Məlahət**

# Cəsədi 3 gün sonra tapıldı

## Sel fəlakəti Zilal Şahini sevdiklərindən ayırıb



**Türkiyənin Amasya bölgəsində sel fəlakəti 30 yaşlı Zilal Şahini sevdiklərindən ayırıb. Sərkan və Zilal Şahin Amasyanın Qızıl Qışlacıq kəndi yaxınlığında istirahət məkanı seçərək təbiətdən zövq almaq istəyiblər.**

”Şərq” ”NTV.com.tr”yə istinadən xəbər verir ki, lakin bölgəyə sel gəlməsi gənc ailənin faciəsinə səbəb olub. Sel gələrkən gənc qadın həyat yoldaşı və dostlarıyla birlikdə avtomobilin içində olub. Sel avtomobili də ağuşuna alaraq aparıb. Sel faciəsindən yalnız Sərkan Şahin xilas ola bilib. Əvvəlcə dostu Murat Ekşinin cansız bədəni tapılıb. Zilalın axtarışları isə davam edib. Xilasedicilər 3 gün boyunca Zilal Şahini axtarıb. Nəhayət, gecə yarısı qadının cansız bədəni aşkarlanıb.  Hadisə barədə açıqlama yayan Amasya valiliyi seldə həyatını itirənlərin ailələrinə başsağlığı verib. Gənc qadının cəsədi tibbi ekspertizadan sonra ailəsinə təhvil veriləcək.

**Məlahət**

# Sevgi kabusu!

## Avtomobilin vəziyyətini görüb şoka düşdü




**Antalyada park edilmiş avtomobilin üzərinə sprey boya ilə ürək lövhələri çəkilib. Sahibi avtomobilin vəziyyətini görüb şoka düşüb.**

”Şərq” türk mediasına istinadən xəbər verir ki, hadisə gecə saatlarında Muratpaşa rayonunun Altındağ məhəlləsində baş verib. Bir şirkətə məxsus park edilmiş 34 RK 6929 dövlət nömrə nişanlı avtomobilin üzərinə naməlum şəxs və ya şəxslər tərəfindən sprey boya ilə ürək izləri çəkilib və üzərində ”Serap, Adem, səni sevirəm, məni tərk etmə, sən mənimsən” sözləri yazılıb.

Dövlət nömrə nişanı rənglənmiş nəqliyyat vasitəsinin 4 təkərinin kəsici alətlə kəsildiyi də məlum olub. Polis məlumatdan dərhal sonra şübhəlilərin tutulması üçün işlərə başlayıb.

**Turan**

# Şvartseneqqerin filmində Bakı ilə bağlı kadr var



**”Netflix” Hollivud ulduzu Arnold Şvartseneqqerin rol aldığı ”Fubar” teleserialının premyerası olub.**

Axşam.az xəbər verir ki, casus komediya janrında çəkilmiş ”Fubar” 8 seriyadan ibarətdir və təqaüdə çıxmaq üzrə olan, lakin onu işə qayıtmağa məcbur edən ailə sirrini öyrənən MKİ agenti Luke Brunnerdən bəhs edir. Bu, Arnold Şvartseneqqerin ilk televiziya layihəsidir.

Epizodların birində A.Şvartseneqqerin qəhrəmanı Bakı və Azərbaycanla bağlı tapşırıq alır, burada o və komandası şəxsiyyətlərini dəyişdirməli və serialın ssenarisinə görə uydurma Sardoviya ölkəsinə uçmalıdır. Onun bunu necə yerinə yetirməsi isə ekran işində göstərilmir.



# Şakira Tom Kruzu yox, onun dostunu seçdi

## Rədd cavabı aktyoru dərindən yaraladı

**Pop ”ulduzu” Şakiranın Hollivud ”ulduzu” Tom Kruza rədd cavabı verməsi, aktyoru dərindən yaralayıb. Dünya mediası hazırda bu xəbəri müzakirə edir. ”Şərq” ”NTV.com.tr”yə istinadən bildirir ki, ötən həftələrdə Formula I yarışlarını izləmək üçün Mayamiyə gedən dünya şöhrətli ifaçı Tom Kruzla görüntülənib.**

Səmimi görüntülər ikilinin arasında sevgi macərasının olması ehtimalı yaradıb. Lakin Şakira tərəfdən gələn açıqlamalar bu ehtimalı yalanlayıb. Açıqlamalarda ”Şakira Tom Kruzun dostu, Formula I ”ulduzu” Levis Hamiltonla da fotokameralara yaxalanıb” deyilirdi. Tom Kruzla bağlı isə ”Şakira haqqında yayılan xəbərləri gülməli hesab edir. Şakiranın Tom Kruza qarşı heç bir özəl duyğusu yoxdur. Sadəcə, dostyana davranıb. Tomun nəzakətli davranışı ifaçını məmnun edib. Ancaq bu qədər. Aralarında başqa heç bir münasibət yaranmayıb”, açıqlaması verilib. Eyni mənbələr bunu da bildirib ki, Tom Kruz Şakiraya ”röyalarımın qadını” deyə müraciət edib, Şakira isə ”məni başdan çıxara bilməzsən, bu rəftarından əl çək”, söyləyib. Bu olayların ardınca Şakira Formula I ”ulduzu” Levis Hamiltonla fotokameralara tuş gəlib. Onlar axşam yeməyində bərabər olub, gəmi gəzintisinə də birgə çıxıblar. Bu da Şakiranın Levis Hamiltonla eşq yaşadığı söz-söhbətlərinin yayılmasına səbəb olub. Hamiltonun İspaniya ”Grand pri”sindəki uğurunu qeyd etmək üçün bir qrupla Barselonaya yollanan Şakira mərasimdə onunla birgə şəkil çəkdirib. Şəkildə Hamiltonun Şakiranı qucaqladığı görünür. ”The Mirror”un yazdığına görə, Tom Kruza yaxın mənbə Şakiranın onu rədd edib, yaxın dostu Levis Hamiltonla sevgili olması aktyorun mənliyinə toxunub, o, özünü  mənliyi zədələnmiş hesab edir. ”Radar Online” danışan mənbə ”Şakiranın bu hərəkəti Tomun eqosunda böyük yara açıb. Xüsusən də Tom, Levisi dostu olaraq gördüyü üçün bu onu daha dərindən sarsıdıb”, söyləyib.



**Məlahət**



# "Baba Vanqa"dan qorxulu proqnoz

## Fövqəldövlətin istifadə edəcəyi silahla dünya təhlükə altına düşəcək

**Proqnozları doğru çıxdıqdan sonra tez-tez gündəmə gələn ”Baba Vanqa”nın öngörmələri dünya mətbuatında manşet olub.**

”Şərq”  ”Milliyet.com.tr”yə istinadən xəbər verir ki, 1911-ci ildə Makedoniyada anadan olan Vangeliya Pandeva Dimitrova dünyada ”Baba Vanqa” kimi tanınır. Ömrünün çox hissəsini Bolqarıstanda keçirən Vanqanın bitki həkimi olmaqla yanaşı, mistik gücə malik olduğu iddia edilir. ”Baba Vanqa”nı tədqiq edən və araşdıran bir çox insanlar onun əvvəlldən bir sıra mühüm hadisələr gördüyünü deyirlər.

Bu hadisələrdən ən diqqət çəkəni SSRİ-nin dağılması, 2004-cü ildə Tailand sunamisi və Barak Obamanın ABŞ prezidenti seçilməsidir.

”New York Post” qəzetindəki günün xəbərləri arasında Vanqanın mümkün nüvə müharibəsi ilə bağlı proqnozları da yer alırdı. Sözügedən xəbər qısa zamanda saytın ən çox oxunan xəbəri olub.

Məqalədə Vanqanın keçmişdə verdiyi proqnozlara istinad edilib. 2023-cü ilin sonunda nüvə müharibəsi gözlədiyini bildirən qəzet, Vanqanın ”Asiya üzərinə çökəcək mistik bulud” sözlərini nüvə fəlakəti kimi şərh edib. Proqnoza görə, fövqəldövlətin istifadə edəcəyi silahla dünya həyatı təhlükə altına düşəcək.

Bu öngörmənin yenidən gündəmə gəlməsinə səbəb Ukraynada dağılmış Kaxovka Su Elektrik Stansiyasıdır. Bu bənd Krım bölgəsini su ilə təmin etməklə məşhur olsa da, onun ən mühüm xüsusiyyəti Ukraynadakı atom elektrik stansiyasının soyumasına kömək etmək idi. Suların nəzarətsiz dağılması ilə nüvə fəlakəti ehtimalı da artıb.

**Turan**

# Tort-paltar görənləri heyran edib

## Ginnesin Rekordlar Kitabına düşdü



**İlk baxışda onun bir geyim - paltar olduğu zənn edilir. Əslindəsə, bu, paltar formasında  hazırlanmış şirniyyat - tortdur.**

Onun özəlliyi budur ki, bu tort-paltar əyinə geyinilir. Tam olaraq 131.15  kiloqram ağırlığında tort-paltar isveçrəli kulinar tərəfindən hazırlanıb.  İsveçrəli kulinar dünyanın ən böyük geyinilə bilən tort-paltarını ərsəyə gətirməklə Ginnesin Rekordlar Kitabına adını yazdıra bilib. ”Şərq” ”Habertürk”ə istinadən bildirir ki, Nataşa Colin Kim Fah Lee Fokas adlı kulinarın tapıntısı Ginnesin Rekordlar Kitabının instaqram hesabında  paylaşılıb. Tort-paltar görənləri heyran edib. Kulinar bu nadir tapıntısını İsveçrə Dünya Toyu sərgisində nümayiş etdirib. Tort-paltar sərginin finalında mərkəzə gətirilib və iştirakçılara, qonaqlara onu kəsmək sevinci nəsib olub.

**Məlahət**

# Heç belə olmamışdı

## 24 saatda 65 min şimşək çaxıb



**Cənubi Avstraliya ştatında güclü qasırğa səbəbindən 10 min ev işıqsız qalıb. Meteorologiya bürosunun məlumatına görə, regionda 24 saat ərzində 65 min şimşək çaxması qeydə alınıb.**

Azərtac ABC News yayım şəbəkəsinə istinadla xəbər verir ki, Adelaida şəhərinin Marion rayonuna yarım saat ərzində 25 millimetr, aeroport ərazisinə isə 20 millimetr yağıntı düşüb.

Sinoptiklər leysan yağışlarının və şimşək çaxmalarının cümə günü səhərə qədər davam edəcəyi barədə xəbərdarlıq edib. Fövqəladə Vəziyyətlər üzrə Dövlət Xidmətinə hələlik ciddi dağıntılar barədə məlumat daxil olmayıb.

# Cütlük 3 aydır sevgilidir

## Pamuk şəxsi həyatı ilə yenidən gündəmə gəlib




**Türkiyəli aktrisa Melisa Aslı Pamuk şəxsi həyatı ilə yenidən gündəmə gəlib.**

Axşam.az xəbər verir ki, aktrisanın Altay Bayındırla münasibətdə olduğu iddia edilib. Cütlük 3 aydır sevgilidir.

Qeyd edək ki, Melisa ötən ilin noyabrında Mustafa Mərt Koçdan ayrılıb. Cütlük 1 il münasibətdə olub. Onun bir müddət əvvəl basketbolçu Mahir Ağva ilə eşq yaşadığı deyilsə də, tərəflər məsələyə münasibət bildirməmişdilər.